


Qarabağın incisi "Muğam" Televiziya Müsabiqəsinə şahidlik etdi

5

# "Dəmir Yumruğ"un GÜCÜNDƏN - Qarabağın DİRÇƏLİŞİNƏ DOĞRU!

İLHAM ƏLİYEV: "BİZ QARABAĞI, ZƏNGƏZURU YENİDƏN QURURUQ, YENİDƏN QURMALIYIQ"



2

Səs

№ 140 (6581) 9 avqust 2022-ci il. Qiymәti 60 qәpik

# Sosial-iqtisadi inkişaf strategiyası qarşıdakı 5 il üçün nə vəd edir?



7



Çavuşoğlu: "Hər kəs bilsin ki, Azərbaycan yalnız deyil!"

5



Kənd təsərrüfatına verilən kreditlərdən necə yararlana bilərik?

4



Ermənistan sosial fəlakətə "qucaq açır"

13

# İKİNCİ HƏYAT...



8

Turizmin inkişafında yeni mərhələ başlayır



10

Ermənilərin köçü başladı: Laçın şəhəri və Zabux Azərbaycana təhvil verilir



# "Dəmir Yumruğ"un GÜCÜNDƏN - Qarabağın DİRÇƏLİŞİNƏ DOĞRU!

## İLHAM ƏLİYEV: "BİZ QARABAĞI, ZƏNGƏZURU YENİDƏN QURURUQ, YENİDƏN QURMALIYIQ"





**Bəli, bu gün "Dəmir yumruğ"un gücü ilə Qarabağ Azərbaycandır dirçəliş yolundadır. İlk olaraq bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi əsas məsələlər sırasındadır. Doğrudur, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. Bu, həm on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir.**

### SÖZÜ İMZASI QƏDƏR QÜVVƏTLİ OLAN LİDER!

Prezident İlham Əliyev həmişə çıxışlarında: "Mənim sözüm imzam qədər qüvvətlidir",-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! "Mənim sözüm imzam qədər qüvvətlidir!",- deyən Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk gündən həyata keçirdiyi siyasət isə respublikamızın davamlı yüksəlişini, möhkəmlənməsini, qüdrətlənməsini təmin edib. Bu inkişaf kompleks xarakter daşıyaraq cəmiyyət həyatının bütün sahələrində yüksəlişə yol açıb.Nəticə etibarilə Azərbaycan regionun lideri statusuna sahib olub, beynəlxalq enerji təhlükəsizliyində dünyanın aparıcı dövlətlərindən biri kimi tanınıb. Bütün bunların fonunda son illərin əsas reallıqlarından biri bugünkü Azərbaycanın öz tarixinin ən qüdrətli dövlətinə çevrilməsidir. Təbii ki, bütün bu uğurlarımızın kökündə hər şeydən əvvəl siyasi iradə, möhkəm qətiyyət, düzgün idarəçilik dayanır. Məhz bunların sayəsində Ulu Öndər Heydər Əliyev 1993-cü ildə, ümidlərin artıq tükəndiyi bir vaxtda Azərbaycanı xilas etmişdi. Özünün siyasi müdrikliyi ilə Heydər Əliyev xarici təsirlərin maraq dairəsində olan Azərbaycanı qorudu, müstəqilliyimizin itirilməsinə imkan vermədi, ölkəmizi inkişaf yoluna çıxardı.

### AZƏRBAYCAN PREZİDENTİ QƏLƏBƏDƏN SONRA QARABAĞIN DİRÇƏLİŞİ YOLUNDA BİR ÇOX DÖVLƏTLƏRİN 10 İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİYİ İŞLƏRİ REALLAŞDIRIB

Görülən işlər göz önündədir. Belə ki, Azərbaycan Prezidenti qələbədən sonra Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Cəmi bir il öncə Vətən müharibəsi başlayanda İlham Əliyev xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Bir sözlə, Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Hər kəs şahiddir ki, erməni vandallarının daşı daş üstündə qoymadığı torpaqlarımızda bir ildə hansı işlər görülüb və bu quruculuq işləri hər gün davam etdirilir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək. İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yəni Qarabağın inkişaf planının tərkib hissəsidir.

### "BİZ QARABAĞI, ZƏNGƏZURU YENİDƏN QURURUQ, YENİDƏN QURMALIYIQ"

"Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".Və bu gün işğaldan azad olunmuş torpaqlarda aparılan möhtəşəm yenidənqurma işləri də ölkənin iqtisadi qüdrətinin daha bir nümayişi kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin dediyi kimi, heç bir yerdən heç kim bizə bir manat yardım etməyib. Azərbaycan öz gücünə, öz imkanları hesabına şəhərlər salır, kəndləri yenidən qurur, binalar tikir.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

İşlərin miqyası bütün dünyanı sözün əsl mənasında heyrətə gətirir. Həmçinin son dövr ərzində ölkədə orta əməkhaqqı 14 faiz, pensiyalar 10 faizdən çox artıb. Bütün bu artımların mənbəyi isə dövlət büdcəsidir. Həm də nəzərə almaq lazımdır ki, ölkənin büdcəsi təkcə neftin qiymətinin artması nəticəsində böyüməyib. Dövlət başçısının dediyi kimi, büdcənin böyüməsi dürüstləşmə və aparılan uğurlu islahatlar nəticəsində mümkün olmuşdur. Həmçinin iqtisadi sahədə aparılan islahatlar nəticəsində ilin ilk 6 ayı ərzində vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldı. Biznes dairələrinə imkan verildi ki, onlar kölgə iqtisadiyyatından çıxsınlar. Nəticə həqiqətən də uğurlu oldu. İqtisadi artım 6,2 faiz, o cümlədən qeyri-neft sektorunda artım 9,6 faiz oldu. Həmçinin hesabat dövrü ərzində əhalinin gəlirləri təxminən 20 faiz artıb. Bütün bunlar Azərbaycan iqtisadiyyatının davamlı inkişafının bariz göstəriciləridir.





İlyarım böyük zaman kəsiyi deyil. Lakin bu qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası olduqca möhtəşəm və genişdir. Görünən odur ki, cəmi 44 günə torpaqlarımızı azad edən Prezident İlham Əliyev ermənilərin viran qoyduğu yurd yerlərimizi sürətlə cənnətə çevirir. Öz doğma yerlərinə qayıdacaq vətəndaşlarımız üçün indi ən mükəmməl həyat şəraiti yaradılır. İyulun 19-da Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa - Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanılması görülən işlərin reallığıdır və verilən sözə əməlin göstəricisidir. İndiyədək qısa zamanda bir sıra iri layihələrin icrası başa çatdırılıb. Şuşaya gedən Zəfər yolunun salınması, Füzuli Beynəlxalq Hava Limanının inşası, Zəngilanda Ağalı kəndinin bərpası, yeni su-elekrik stansiyalarının, yarımstansiyaların istifadəyə verilməsi, Şuşa şəhərində başlanan bəzi layihələrin yekunlaşması azad olunmuş ərazilərin bərpası işlərinin sürətlə həyata keçirilməsindən xəbər verir. Ən əsası bütün bunlar bu ərazilərin yenidənqurulması ilə bağlı güclü siyasi iradənin olmasının göstəricisidir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza mütəmadi səfərləri də göstərir ki, dövlət başçısı bu məsələni xüsusi diqqət və nəzarətində saxlayır. Dövlət başçısının Qarabağa və Şərqi Zəngəzura hər səfəri yeni layihələrin təməlinin qoyulması, şəhərlərin baş planlarının təsdiq edilməsi ilə əlamətdar olur. Müzəffər Ali Baş Komandanın bir neçə gün əvvəl Kəlbəcər rayonuna səfəri bir daha göstərdi ki, Azərbaycan dövləti işğaldan azad etdiyi ərazilərin bərpası üçün necə əzəmətli layihələr reallaşdırır.Bir məsələni də xüsusi qeyd etməliyik. Qarabağ və Şərqi Zəngəzurun bərpasını Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. Dövlət başçısı cari ilin 6 ayının yekunları ilə bağlı keçirilən müşavirədə dövlətimizin başçısı bildirib ki, biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq: "Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik. Bununla paralel olaraq, sosial məsələləri həll edirik və edəcəyik, heç kimin bunda şübhəsi olmasın. Çünki yenə də bunu özümüzə mənəvi borc bilirik və bizim sosial siyasətimiz hər zaman belə olub. Baxın görün, son müddət ərzində əməkhaqları nə qədər artıb. Bu il, məsələn, orta əməkhaqqı haradasa 14 faiz artıb, pensiya 10 faizdən çox artıb. Bütün bu artımların mənbəyi var, bu da dövlət büdcəsidir. O büdcə ki, o büdcədən biz ordumuzu gücləndiririk və gücləndirəcəyik, bax, dediyim səbəblərə görə. O büdcə ki, biz sosial məsələləri həll edirik, Qarabağı yenidən qururuq və bütün başqa ehtiyaclarımızı ödəyirik və heç kimdən bir manat almadan. Ona görə bunu bilmək lazımdır. Bunu unudanlar da gərək yaddaşlarını, necə deyərlər, aydınlaşdırsınlar, bir az diqqətli olsunlar. Əlbəttə ki, bütün bu işlərin görülməsi üçün iqtisadiyyat əsasdır. Çünki güclü iqtisadiyyat güclü dövlət deməkdir. Dövlət başçımızın dediyi kimi: "İqtisadi müstəqillik əldə edilmişdir və biz məhz buna görə siyasi müstəqillik əldə etmişik, beynəlxalq müstəvidə müstəqillik əldə etmişik. Heç kim bizim iradəmizə təsir edə bilməz, heç kim bizə heç nəyi diktə edə bilməz, heç kimdən asılı deyilik və əminəm ki, heç vaxt heç kimdən asılı olmayacağıq. Asılı olsaydıq, Qarabağ bu günə qədər işğal altında idi. Ona görə iqtisadi müstəqillik əsas amillərdən biridir və burada da böyük nailiyyətlər var. Ona görə iqtisadi sahədə aparılan islahatlar imkan verdi ki, 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldı. Nə üçün? Çünki şəffaflıq var, dürüstlük var, hesabatlılıq var".






Prezident İlham Əliyev həmçinin müşavirədə Vətən müharibəsindən 1 il 8 ay ötməsinə baxmayaraq Ermənistanın məcburən üzərinə götürdüyü öhdəliklərini hələ də yerinə yetirmədiyini deyib. Belə ki, 10 noyabr bəyanatının 4-cü bəndinə əsasən erməni silahlı qüvvələri Qarabağ ərazisindən tam çıxarılmayıb. Bundan əlavə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında dəmir yolu və avtomobil yolu təmin olunmalıdır. Amma Ermənistan bu razılaşmaya da əməl etmir. Halbuki, Azərbaycan Laçın dəhlizi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Ermənistanın da borcudur ki, öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsin.

Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Hər kəs şahiddir ki, erməni vandallarının daşı daş üstündə qoymadığı torpaqlarımızda bir il 8 ayda ə hansı işlər görülüb və bu quruculuq işləri hər gün davam etdirilir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək. İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yəni Qarabağın inkişaf planının tərkib hissəsidir.

Bəli, artıq bir il 8 aydır ki, gözəl Qarabağımızda yeni canlanma var, onu cənnətə çevirmək üçün böyük quruculuq, abadlıq işləri aparılır. Və mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz elobalarına geri dönəcəklər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır! Dövlət başçımızın dediyi kimi: "Biz gözəl Qarabağımızı yenidən canlandıracaq, onu cənnətə çevirəcəyik".

**RƏFİQƏ HÜSEYNOVA**

## Rəsmi xronika

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Birmingem şəhərində keçirilən XI Dünya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.

ARAŞDIRMA

# Kənd təsərrüfatına verilən kreditlərdən necə yararlana bilərik?

**Dünyada milyonlarla insan ifrat yoxsulluğu ilə üz-üzədir. Bu da öz növbəsində ərzaq təhlükəsizliyi problemindən xəbər verir. Dünyada qida təminatından məhrum olan 291 milyon insanın 72%-i Asiyada, Banqladeş, Hindistan, İndoneziya və Pakistanda yaşayır.**

Pandemiyadan başqa, iqlim dəyişikliyi dünyada kənd təsərrüfatının üzləşdiyi ən böyük problemdir. Ekstremal hava hadisələrinin artması məhsuldarlığı və sektorun ümumi dayanıqlığını təhdid edir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, insanlar təbii fəlakətlər səbəbindən bitkiçilik və heyvandarlıq istehsalında 207 milyard dollar ümumi məhsulun 74%-ni itirir. Bu problemi həll etmək üçün dövlət siyasəti ekstremal hava hadisələri üçün erkən xəbərdarlıq sistemləri, kənd təsərrüfatı infrastrukturunun və istehsal təcrübələrinin iqlimə davamlılığı və əlverişli sığorta kimi bir sıra həllərə yol açmalıdır.

Hər il dünyada 850 milyon insan ac qalır və son onilliklər ərzində bu rəqəm azalmağa doğru gedir. Kənd təsərrüfatı bir çox ölkələrin inkişafı üçün əsas olaraq qalmaqdadır. İnkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı ümumi milli məhsulun əsas paylayıcısıdır və fermerlər (xüsusilə kiçik fermerlər) əhalinin əksəriyyətini təmsil edirlər.

Kənd təsərrüfatı bir çox cəmiyyətlər tərəfindən dəstəklənir və bu da qlobal ərzaq bazarına müəyyən təsir göstərir. Bu vəziyyət bir neçə onilliklər ərzində texnoloji tərəqqinin nəticəsidir. Ölkələrdə məhsuldarlıq inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrdəki kiçik fermerlərinkindən təxminən 500 dəfə yüksəkdir.

Məhsuldarlığın artırılması təsərrüfatların genişləndirilməsini və mexanikləşdirilməsini tələb edir. Bu dəyişikliklər fermerlərdən yaşamaq yolunda deyil, inkişaf yolunda olmağı tələb edir. Dövlətlər tərəfindən kənd təsərrüfatı ilə bağlı bir çox planlar, layihələr həyata keçirilir ki, onların arasında güzəştli kreditlər əsas yer tutur desək yanılmarıq.

## Bəs ölkəmizdə kənd təsərrüfatı sahibləri bu kreditlərdən nə dərəcədə yararlanır?



**"İqtisadi və Sosial Araşdırmalara Yardım" İctimai Birliyinin sədri, iqtisadçı Eyyub Kərimli** SİA-ya açıqlamasında kənd təsərrüfatına verilən kreditlərdən danışıb.

Kənd təsərrüfatına verilən kreditləri almaq üçün müvafiq banklara müraciət etmək lazımdır. Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə fermer təsərrüfatına güzəştli kreditlərin təqdim edilməsi nəzərdə tutulmuşdur. Əsasən ərzaq tədarükü ilə məşğul olan sahibkarlıq obyektlərinə verilir. Həmçinin cənab Prezident tərəfindən sərəncam verilib ki, ərzaqlıq buğdanın əkilməsi ilə bağlı 5 illik güzəştli şərtlərlə kreditlər verilsin. Həmçinin dövlət tərəfindən həmin ərzaqları dünya standartlarına uyğun olaraq bazar qiymətinə əldə edəcəkdir. Bu da kənd təsərrüfatının inkişafına mühüm və müsbət təsirlər göstərməkdir. Kreditlərlə bağlı bankların adlarını çəkmirik, bu aydın məsələdir. Lakin ümid edirəm ki, bütün banklar Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə müvafiq məlumatlar əldə edəcək və əhalinin müraciətlərinə cavab olaraq lazimi işlər həyata keçiriləcək.

Burada əsas məsələ reysterində kənd təsərrüfatı subyekti və ya qeydiyyatdan keçmə şərtidir ki, bir insan fermer təsərrüfatı ilə əkinə, biçinə lazım olan kreditlərdən yararlana bilsin. Belə fərmanlar fermerləri stimullaşdırır, həmçinin qeyri-neft sektorunun inşasına təkan verir, onlarda həvəs yaradır ki, bu da subsidiya verilən sahələrlə daha çox məşğul olmağa gətirib çıxarır. Bariz nümunədir ki, dövlət müəyyən kənd təsərrüfatı məhsullarının ixracına, idxalına həm meyvələrin, həm də tərəvəzlərin ixracına müəyyən şərait yaradır. Geridə qoyduğumuz illərə nəzər salsaq, bu il qeyri-neft sektoru ümumi ixracın 51 faizini təşkil edir. Bunun içində kənd təsərrüfatının payı çoxluq təşkil edir. Həmçinin ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatının inkişafında çox böyük təsirini görürük. Artıq

Qarabağda geri alınmış torpaqlarımızın əkinə inteqrasiyası başlayır, bu da sözsüz ki, kənd təsərrüfatının inkişafına, müəyyən ərzaq artımına səbəb olacaqdır. Həmin bölgənin təbiətinə, iqliminə uyğun bitkilərin artmasına təkan verəcəkdir. Gələcəkdə cənab Prezidentin imzaladığı 2022-2026-cı illər iqtisadi sosial strategiyanın tərkib hissəsi olaraq həmin bölgələrdə həyata keçiriləcək və həmin strategiyada məhsulun hər il 4 faizin artması nəzərdə tutulmuşdur.

**İqtisadçı-ekspert Eldəniz Əmirov** isə qeyd edir. İqtisadi sahələr arasında kənd təsərrüfatına qoyulmuş investisiyaların geri dönüşü ilə bağlı böyük risklərin olduğu sahələrdən biridir. Çünki burada iqlim normaları, təbii fəlakətlər sel, daşqın, o cümlədən quraqlıq, zərərvericilər, mövsumi xəstəliklər və s. bir çox faktorlar vardır ki, kənd təsərrüfatı sahəsinə ciddi şəkildə mənfi təsirlərini göstərir. Bu səbəbdən kənd təsərrüfatına ayrılmış kreditlər böyük riskli kreditlər hesab olunur. Buna görə də banklar kənd təsərrüfatına kreditləri ayırmaqda o qədər də maraq göstərmirlər, çünki burda risk amili çox böyükdür. Həmçinin elə kənd təsərrüfatı məhsulları vardır ki, çox illik xarakter daşıyır. Məsələn bu il krediti bu sahəyə yatırım etdikdən sonra məhsulun satışı və gəlirin əldə olunaraq kreditin ödənilməsinə 3/4 il lazım gəlir. Bankların bu sahə ilə maraqlanmasının əsas səbəblərdən biri kimi bunu da qeyd etmək olar. Buna görə də dövlət beynəlxalq və yerli təşkilatlarla müxtəlif proqramlar icra edir və bu proqramlar çərçivəsində müxtəlif banklar kredit verir. Məsələn kənd təsərrüfatının rəqəmsallaşdırılması, rəqabətin artırılması, bu sahədə qadın gücünün artırılması, qadın sahibkarların çoxalması yönümdə dəstək göstərilməsi üçün 1 aylıq, 5 aylıq bəzən 1 illik çərçivəsində kreditlər verilir. Nəzərdə tutulan kreditlər kütləvi yox, məhz məhdud səviyyədə verilir.



Kənd təsərrüfatının kreditləşdirilməsi istiqamətində ölkədə fəaliyyət göstərən qurumlardan biri, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit İnkişaf Agentliyidir (AKİA). Mən deyərdim ki, kənd təsərrüfatının inkişafında ən böyük rola malik elə məhz bu qurumdur. Düzdür hazırda vəziyyət qənaətbəxş halda deyil, amma 5/10 il əvvəl müqayisədə müəyyən qədər irəliləyiş var. Kənd təsərrüfatında çalışan sahibkarların istər xəstəliklərə qarşı mübarizədə, istər qanunvericiliyin tələblərinin müəyyən edilməsi istiqamətində, istər xarici bazarlarına çıxışı kimi müxtəlif sahələrdə kənd təsərrüfatı sahibkarlarına dövlət dəstək mexanizmləri vardır və fəaliyyət göstərir. Hal hazırda 5/10 il öncəyə nisbətən inkişaf var deyə bilərik, amma bu inkişaf lazımi dərəcədədirmi bunu zaman göstərəcək.

Həmçinin, güzəştli şərtlərlə kənd təsərrüfatı avadanlığı və texnikası, damazlıq heyvan alışı üçün nəzərdə tutulan kreditlər mövcuddur. Belə ki, sahibkar tərəfindən texnikanın dəyərinin 20%-i həcmində ilkin ödəniş, dövlət tərəfindən 40 %-i həcmində subsidiya (güzəşt), qalan məbləğ isə Bank tərəfindən faizsiz kreditləşməklə kənd təsərrüfatı texnikası əldə etmək mümkündür. Damazlıq heyvan alışı üçün isə heyvanın dəyərinin 25%-i həcmində ilkin ödəniş, dövlət tərəfindən 60% subsidiya (güzəşt), qalan məbləğ isə illik 7%-lə Bank tərəfindən kreditləşdirilir. 2022-ci ilin yanvar-mart ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1 153,1 mln. manat təşkil edib ki, onun da 1 085,3 mln. manatı heyvandarlıq, 67,8 mln. manatı isə bitkiçilik məhsullarının payına düşür. Götürülən işlərin nəticəsidir ki, Statistika Komitəsinə istinadən verdiyi məlumata görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,4%, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,8%, bitkiçilik məhsulları üzrə 14,4 % artıb.

**Dövlət Məşğulluq Agentliyinin Əmək bazarının təhlili və inkişafı departamentinin müdiri Elman Sadıqov** bildirir ki, iqtisadiyyatın əmək bazarına daxil olan işçi qüvvəsinin sayına nisbətən daha az iş yerinin yaradılması kənd təsərrüfatının payına düşür.

Ən son olaraq 2022-2026-cı ildə sosial-iqtisadi inkşafla bağlı proqramın təmin olunmasıdır ki, bu da iqtisadiyyatın müxtəlif sahələrini əsasən də faktiki olaraq kənd təsərrüfatının inkişafına təkan verəcəkdir.



Özünəməşğulluq proqramları da var ki, bir çox insanlar özünə yeni işlər qura bilərlər və özünü məşğulluq isə yavaş-yavaş kiçik sahibkarlığa çevrilir. Bu sahədə işəgötürənlərin aktiv olması arzuolunandır, çünki bu həm də işə götürülənlərin maliyyə yükünün azaldılması və müəyyən təbəqədən olan insanların, o cümlədən işsizlərin əmək bazarına qazandırması istiqamətində atılan əsas addımlardan biridir.

## Ölkəmizdə işsizliyə daha çox hansı sahələrdə tələbat var?



İlk növbədə kənd təsərrüfatı sahəsində daha çox ehtiyac vardır, lakin kənd təsərrüfatında daha çox ixtisaslı işçilərə ehtiyac duyulur. Aqronomlara, zootexniklərə həqiqətən ehtiyac duyulur və çox təəssüf ki bu sahədə biz öz tələbələrimizi yerinə yetirə bilmirik və nəticə etibarilə fermer təsərrüfatları həmin işləri yerinə yetirmək üçün xarici ölkələrdən, xüsusilə Türkiyədən ixtisaslı kadrları dəvət edirlər. Bir çox hallarda vakansiyaların oldmadığını görürük, məsələ peşəkar kadr məsələsidir ki, bəzi hallarda nisbətən daha yaxşı kadrlar seçilir müəyyən yerlərə ki, bu da əslində məsələnin həlli deyil. Deməli kənd təsərrüfatı, turizm maliyyə sektoru sahəsində, o cümlədən tibb sahəsində də peşəkar kadr ehtiyacı mövcuddur.

Kənd təsərrüfatı bu problemlərlə bağlı müəyyən ciddi addımlar atır. Lakin kənd təsərrüfatının artım dinamikası daha sürətli olduğu üçün davamlı olaraq bu sahədə kadra ehtiyac duyduğunu görürük. Sahibkarların artması, fermerlərin bu işə ürəklə daha ciddi yanaşması, həmçinin məhsulun bolluğunun artırılması üçün dövlət bir çox planlar və layihələr irəli sürür ki, bu da kənd təsərrüfatı iqtisadiyyatının inkişafına xüsusi təkan verəcək.

***Havar Şəfiyeva***

# Qarabağın incisi

## “Muğam” Televiziya Müsabiqəsinə şahidlik etdi




**”...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir”.**

Ulu Öndər Heydər Əliyevin söylədiyi bu fikirlər Azərbaycanın incisi Şuşamıza verilən böyük dəyər, qiymətdir. Qədim torpağımız olan Şuşa 28 ilə yaxın işğal altında olduğu illərdə hər bir insanın qəlbi bu əzəmətli şəhərlə döyünürdü. Əlbəttə ki, işğal altında olan torpaqlarımızın azad olunması, açılan bir səhərdə bu məkanlara yol almağımızı hamı müqəddəs arzu olaraq ürəyində gəzdirirdi. ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!” cümlələrini heç kəs yaddaşından tarixi gün kimi silə bilməz. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa işğaldan azad olunan gün - noyabrın 8-də Şəhidlər Xiyabanından xalqa müraciətində dediyi bu xoş xəbər Azərbaycanın qalib xalq olaraq tarixinə əbədi yazıldı. İnsanlar küçələrə, meydanlara axışaraq qürur və böyük sevinc hisslərini paylaşmaları daxildən gələn bir sevincin izharı idi, ürəklərdə yuva salmış bir nisgilin, qubarın sanki dağıdılması idi. 44 günlük müharibədə qələbə qazanmış Azərbaycan xalqı 30 ilə yaxın işğaldan olan torpaqların əzəli sakinləri illərdir ki, yuxularında gördükləri dədə-baba torpaqlarına ayaq basacaqlar. Bundan gözəl nə ola bilərdi? Bu gün o yerlərə ayaq basırıq. Əziz Şuşamıza yol gedirik. Ziyarət üçün, toy-büsat qurmaq üçün, əziz bayramlarımızı qeyd etmək üçün Beynəlxalq tədbirləri keçirmək üçün dünya ölkələrinin nümayəndələrini bu əzəli torpağımıza dəvət edirik. Şuşa bu gün başqa bir ab-havadadır. Bir tərəfdən abadlıq quruculuq işləri, Azərbaycan Prezidenti İlham Əliyevin səfərləri, qoyulan təməllər, icrasına başlanılan layihələr, digər tərəfdən isə müxtəlif məzmunlu tədbirlərin təşkili. Bütün bu tədbirlər içərisində mədəniyyət tədbirlərinin təşkili də böyük rezonans doğurub. Xarıbülbül Beynəlxalq musiqi Festivalı, Vaqif Poeziya günləri Hər birinin öz tarixi var. İlk festivallar, poeziya günləri. İllərdir ki, ölkəmizdə keçirilən ”Muğam” Televiziya Müsabiqəsini sorağını bu diyardan eşidiləcəyinə hər zaman arzu olaraq qeyd edirdik. Artıq həyatımızda çox arzularımızın həyata keçirilməsinə nail olmuşuq. ”Muğam” Televiziya Müsabiqəsin final müsabiqəsinin Şuşada keçirilməsi, böyük tətənəyə çevrildi. Avqustun 5-də Şuşada Bülbülün ev-muzeyinin həyətində təşkil olunan VIII ”Muğam” Televiziya Müsabiqəsinin final mərhələsi torpaqlarımızın azadlığı uğrunda qurban gedən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Müsabiqə Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilib. Bu gün muğamın sədalarının Şuşamızda eşidilməsi və onun dağına-daşına yayılması buradan bütün dünyaya bir ismarıcdır. Biz qayıtmışıq. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır. Həm milli mədəniyyət üçün, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyəri, onun yüksək mənalılığı 2003-cü ildə YUNESKO kimi nüfuzlu beynəlxalq təsisat tərəfindən etiraf olunmuşdur. YUNESKO muğamı ”bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri” elan etmişdir. Muğam - Azərbaycanın ənənəvi musiqisinin ən iri janrının ümumi adıdır, muğam formalarının bütün növlərinə şamil olunur, hərçənd onlardan hər birinin öz ayrıca adı mövcuddur. Bu janrı təmsil edən başlıca musiqi formaları - dəstgah, muğam və zərbi-muğamdır. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX yüzilin 20-ci illərindən XX yüzilin əvvəllərinə qədər Azərbaycan şəhərlərində yaranmış ədəbi və musiqi məclisləri böyük rol oynamışdır. Onlardan ən məşhuru Şuşada ”Məclisi-Fəramuşən”, ”Məclisi-Üns”idi. Bu məclislərdə şairlər, ədiblər, musiqiçilər, sadəcə ziyalı şəxslər, klassik poeziyanın və musiqinin sərrafları və biliciləri toplaşır, muğamları diqqətlə dinləyir, musiqinin və şeirin incə ifası ətrafında müzakirələr aparırdılar. Məclislər özlüyündən XIX yüzil - XX yüzilin əvvəlində Azərbaycan musiqiçilərinin professional baxımdan, kamilləşmələrində güclü stimul rolunu oynamışdı. Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etməliyik. ”Azərbaycan muğamları” layihəsi çərçivəsində ”Qarabağ xanəndələri” musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır. Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilmiş layihələr arasında Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur. Regionlarda da Muğam Mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağcabədi şəhərində Qarabağ Muğam Mərkəzi inşa olunmuşdur. Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək həyata keçirilir. İlk olaraq Fondun birbaşa dəstəyi ilə keçirilən və Azərbaycan muğam sənətinin inkişafına və təbliğinə böyük töhfələr verən muğam müsabiqələrini və beynəlxalq festivalları qeyd etmək lazımdır. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən də razılıqla qarşılandı. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə hər il ardıcıl olaraq muğam müsabiqəsi keçirilir. Təsadüfi deyil ki, Ulu Öndərimizin adını daşıyan Heydər Əliyev Fondunun çoxsaylı məqsədlərindən biri də milli-mənəvi dəyərlərimizin, o cümlədən, muğamlarımızın qorunması və təbliği ilə bağlıdır.

### BU TORPAQ BASILMAZDIR, BİZ ONUN QUCAĞINA YENƏ DƏ GƏLDİK VƏ YENƏ DƏ GƏLƏCƏYİK

Bu gün Şuşamızda VIII ”Muğam” Televiziya Müsabiqəsinin final mərhələsi keçirildi. Xan Şuşinskinin ifasında səslənən ”Şuşanın dağları” mahnısının lent yazısı musiqi bayramına xüsusi rəng qatıb. Axı, vaxtilə Şuşa bu səsə qulaq kəsmişdi, onu heyranlıqla dinləmişdir. Bu gün Böyük muğam sənətinin Xanının xanəndəlik məktəbinin yetirmələri yenidən Şuşanın qoynunda ”Qarabağ” mahnısını səsləndiriblər. Dünya nə qədər zalımları öz qoynunda yaşatsa da, bir gün verəcəyi dərsi ilə qüdrətini onlara göstərəcəkdir. Çünki bu İlahinin qüdrətidir. Müsabiqəyə Xalq artistləri Arif Babayev, Mələkxanım Eyyubova, Sərdar Fərəcov, Mənsum İbrahimov, Nəzakət Teymurova, Teyyub Aslanov, Əməkdar artist Fərqanə Qasımova və müsabiqənin icraçısı Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi münsiflik edib. ”Şuşa Azərbaycan mədəniyyətinə böyük dühalar, musiqi xiridarları bəxş edib. Bu torpaq basılmazdır, biz onun qucağına yenə də gəldik və yenə də gələcəyik. Çox şükür ki, Qarabağ torpağının üstündəyik, Şuşadayıq, alınmaz bir qaladayıq. Biz burda daim yaşayıb-yaradacağıq”, -deyə bildirən Xalq artisti Arif Babayev Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib: ”Mehriban xanım bəlkə də dünyanın xeyirxah xanımları arasında birincidir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu çox böyük işlər görüb və onlardan biri də məhz muğam müsabiqəsidir. Bu, çox böyük işdir və inanırıq ki, muğamımız, muğamatımız etibarlı əllərdədir və həmişə yaşayacaq”.

Əlbəttə ki, Heydər Əliyev Fondu təşəbbüsü ilə keçirilən müsabiqə istedadlı musiqiçilər nəslinin yetişməsində önəmli rol oynayır. Bu gün Şuşada keçirilən tədbir istedadlı gənclərimizin yaddaşında xüsusi bir səhifə açacaqdır. Şuşa kimi əzəmətli, böyük musiqiçilər beşiyi olan məkandan sənət numunələrini sərgiləmək böyük bir xoşbəxtlikdir. Bu onlara nəsib oldu. Şuşa bulağından su içəcək yeni bir nəsil yetişəcəkdir. O zaman yenidən böyük sənətkaralarımız orada ustad dərsləri keçəcəkdər. Şuşadan ucaldılan yeni səslər sanki Şuşanı ağuşuna alıb, ecazkar qüvvəsini dünyaya bəyan edəcəkdir. Prezident Cənab İlham Əliyevin vurğuladığı kimi, ”Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”

***Zümrüd BAYRAMOVA***

## Çavuşoğlu: “Hər kəs bilsin ki, Azərbaycan yalnız deyil!”

“Azərbaycanın İkinci Qarabağ müharibəsindəki qələbəsi Cənubi Qafqazda sülhün və normallaşma prosesinin başlanmasına şərait yaratdı”. SİA-nın məlumatına görə, bunu Ankarada XIII Səfirlər Konfransında çıxışı zamanı Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. ”Dost da, düşmən də bilsin ki, can Azərbaycan heç bir zaman yalnız deyil” - deyə M. Çavuşoğlu qeyd edib.



# Taxıl böhranından çıxış “taxıl dəhlizi”mi?

**Dünya taxıl böhranı ilə üzləşib. Gərginlik, təlaş o qədər artıb ki, hətta bunun böyük savaşa keçəcəyi barədə təhlükəli proqnozlar verənlər də tapılır. Quraqlıq, yanacağın qiymətində hər gün baş verən dəyişikliklər, fors-major hadisələr - müharibələr, iqlim dəyişkənliyi, əhalinin sayındakı artım dünyada taxıla olan tələbatı bir az da artırır. Bəs həqiqətənmi dünyada baş verən taxıl böhranının əsl səbəbkarı Rusiya-Ukrayna savaşıdır? Bu hadisənin təsirsiz olduğunu deyə bilməsək də, tam olaraq bu müharibədən asılı olduğunu da söyləmək olmaz. Dünyanın ən iri taxıl ixracatçısı Çindir - 135 milyon tondan çox, Hindistan 107 milyon ton taxıl istehsal etsə də onun cəmi 2, 5 milyonunu satır, qalanını taxili tələbatına saxlayır. Hər halda 1,4 milyard əhalinin taxıla olan ehtiyacını ödəmək lazımdır. ABŞ və Kanada ”saxla samanı, gələr zamanı” siyasətinə üstünlük verərək buğdanı bazara çıxarmaqdan imtina ediblər.**




Rusiya Kənd Təsərrüfatı Nazirliyi taxıl ixracının azalacağı ilə bağlı xəbərdarlıq edib. Bu il ümumi məhsul nəzərdə tutulandan aşağı ola bilər. Rəsmilər məhsul yığımında ötən ilki qrafikdən xeyli geri qaldığını qeyd edirlər. Məhsul yığımı üçün hava şəraitinin əla keçdiyini deyən ekspertlər proqnozların aşağı düşməsinin səbəbini əkin sahələrinin düzgün qiymətləndirilməməsində və rüsumlar hesabına kənd təsərrüfatı müəssisələrinin ixracın artırılmasına marağını itirməsində görürlər.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) dünya buğdasının qiymətinin 14,5% ucuzlaşdığını bildirib. Türkiyənin Kənd Təsərrüfatı Naziri Vahit Kirişçi bildirib ki, buğdanın hər tonunun qiyməti 440-450 dollardan 350-355 dollara düşüb. Bütövlükdə, mart ayında rekord həddə çatdıqdan sonra qlobal ərzaq qiymətləri ardıcıl dördüncü ayda azalmağa davam edir, FAO indeksi iyulda 2022-ci ilin iyun ayına nisbətən 8,6% aşağıdır. Bu, 2021-ci ilin iyul ayı ilə müqayisədə 13,1% yüksək olsa da, yazda indeksin artımı 30% səviyyəsində olub.

Rusiyada da taxılın qiyməti ucuzlaşıb. İyulun sonunda Uralda, Volqaboyu və Sibirdə tənəzzül kəskin surətdə artıb. Uralda 3-cü dərəcəli buğda 2,65 min rubl ucuzlaşaraq bir ton üçün 16 minə, Sibirdə - 15 minə, Volqa bölgəsində - 13,7 minə qədər ucuzlaşıb.

Dünya bazarları üçün xoşagəlməz sürpriz, artıq rekord məhsul və böyük potensial ixracdan danışmayan Rusiya Federasiyasından gələ bilər. Kənd təsərrüfatı naziri bu il 130 milyon ton taxıl yığmağa imkan verməyən risklərdən danışıb. ”Bunlar, xüsusən, bir sıra rayonlara yağan yağışlar, yüksək rütubət və küləklərdir. Bundan başqa, indiki şəraitdə kənd təsərrüfatı texnikasının yükü xeyli artıb, xarici texnikalar üçün isə komponentlərin tədarükü ilə bağlı çətinliklər yaranıb. Nəticədə avqustun 4-nə Rusiyada 56,5 milyon ton taxıl yığılıb ki, bu da ötən ilin analoji tarixi ilə müqayisədə (64,5 milyon) 8 milyon ton (12,4%) azdır. Biz Rusiya bazarını tam təmin edəcək, bununla bağlı heç bir problem olmayacaq”, - deyə nazir bildirib.

Lakin nəzərdə tutulan həcmlərə nail olunmasa, Rusiya 50 milyon tonluq ixrac planlarına yenidən baxmalı olacaq. Bu isə dünya taxıl bazarına mənfi təsir göstərə bilər. Eyni zamanda vurğulayaq ki, məsələ təkcə Rusiya məhsulunda deyil. ABŞ və Avropada quraqlıq, Avstraliyada daşqınlar, Hindistanda da pis hava var. Nəticədə bütün ixracatçılar tədarükləri kəsəcəklər.

Ümumilikdə, 2021-ci ildə Rusiya Federasiyasında 121,4 milyon ton taxıl, o cümlədən 76 milyon ton buğda yığılıb. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, 2021-2022-ci kənd təsərrüfatı ilində (30 iyunda başa çatıb) ixrac 38,1 milyon ton (bunun 30,7 milyonu buğda olub) təşkil edib. Əvvəlki ildə ixrac 49 milyon ton, o cümlədən 38,4 milyon ton buğda olub. Bir ay əvvəl Kənd Təsərrüfatı Nazirliyi taxıl məhsulunun 130 milyon ton (87 milyon ton buğda) olacağını proqnozlaşdırmışdı. Rekord 50 milyon ton ixrac potensialını isə prezident Vladimir Putin, xüsusən də iyunun sonunda BRİKS Plus sammitinin iştirakçıları ilə videokonfrans zamanı dəfələrlə dilə gətirib. Bildirib ki, Rusiyada yaxşı məhsul var. Hər şey yaxşı olacaq və bu il dünya bazarına çıxardığımız 37 milyon tondan çox güman ki, dünya bazarlarına 50 milyon ton taxıl çıxara biləcəyik.

İndi Kənd Təsərrüfatı Nazirliyinin məsul şəxslərinin sözlərinə görə, həm biçin, həm də ehtiyat hissələri ilə bağlı hər şey pis gedib. Lakin Kənd Təsərrüfatı Nazirliyinin bu həyəcanverici bəyanatları təbiətin vəziyyəti ilə bağlı qiymətləndirmələri və analitiklərin proqnozları ilə kəskin şəkildə ziddiyyət təşkil edir. Məsələn, avqustun 5-də ”Rusaqrotrans” analitik mərkəzi qış buğdasının yüksək məhsuldarlığı fonunda bu il Rusiyada buğda istehsalı proqnozunu 92,7 milyon tondan 94,1 milyon tona qədər artırıb.

”Rusiyanın hava şəraiti çox şanslı olub, keçən ilin payızından bəri yaxşıdır”, - ”Sovecon” kənd təsərrüfatı bazarı analitik mərkəzinin direktoru Andrey Sizov bildirib. Bəzi rayonlarda yağan yağışların payızlıq əkinlərin keyfiyyətini pisləşdirə biləcəyini deyən Mərkəz direktoru, əlavə edib ki, yaz məhsulu əla olacaq. ”Biz taxıl yığımını 137,5 milyon ton, ixracı isə 55 milyon ton proqnozlaşdırırıq ki, bu, rekord göstəricidir”. O, daha əvvəl bildirilmişdi ki, ”Sovecon” cari kənd təsərrüfatı ilində (2022-ci ilin iyul - 2023-cü ilin iyun ayları) buğda yığımı proqnozunu 1,7 milyon ton artıraraq 80,9 milyon tona, ixracını isə rekord həddə - 42,9 milyon tona çatdırıb.

Qeyd edək ki, ”Qazprom” müxtəlif və kifayət qədər obyektiv səbəblərə görə 2022-ci ilin birinci yarısında Avropaya tədarükünü üçdə birdən çox (34,7%) azaldıb, şirkətin rəhbərliyi isə maliyyə əməliyyatlarının nəticəsindən kifayət qədər razıdır, çünki yanacağın qiymətləri çox yüksək səviyyədə saxlanılır.

Proqnozların belə kəskin geriləməsini hava şəraiti ilə izah etmək olmaz, çünki ölkənin əsas taxılçılıq rayonlarında təbii fəlakətlər baş verməyib, kənd təsərrüfatı müəssisələri də ehtiyat hissələrini əvvəlcədən hazırlayır və onların qıtlığı gələn il özünü büruzə verə bilər, deyə Bazar Araşdırmaları Mərkəzinin direktoru Georgi Ostapkoviç hesab edir. ”Taxıl çatışmazlığı ilə bağlı məlumatların qiymət artımı üçün mümkün amil kimi manipulyasiya edilməsini istisna etmək olmaz, lakin belə bir ehtimal olduqca azdır. Burada hər şey daha şəffafdır və amerikalılar, məsələn, peyklərdən hər hektarı, hər yüz kvadrat metri görə bilirlər”, deyə ekspert izah edib.

Rusiya Taxıl İttifaqının vitse-prezidenti Alexander Korbut deyib ki, 7-8 milyon ton geriləmə realdır və bunu təkcə hava ilə əlaqələndirmək olmaz. Bunun bir neçə səbəbi var. Əvvəla, ilkin olaraq 19 milyon hektar əkin sahəsi elan edilmişdi və məlumatlara görə, yazda cəmi 16,4 milyon hektarda səpin aparılmışdır və bu fərq əslində izah edilməmişdir. Kənd Təsərrüfatı Nazirliyinin ötən il tətbiq etdiyi statistik məlumatların dərcinə qoyulan məhdudiyyət də başa düşülməyə mane olur. Yüksək ixrac rüsumuna görə təsərrüfatların rentabelliyi azalıb (rüsum səbəbindən fermerlər satışdan demək olar ki, 450 milyard rubl itiriblər), əvvəlki illərdə formalaşmış maliyyə ehtiyatları tükənib, buna görə də qiymətləri xeyli yüksələn texnika (bir kombayn 20 milyon rubla başa gəlir) və ehtiyat hissələri kreditlə alınmalıdır.

Hər halda, Rusiya taxılçılıq təsərrüfatları daxili istehlak üçün lazım olan 80 milyon ton məhsul yığacaq, lakin yüksək rüsum səbəbindən ixracı artırmaqda sadəcə maraqlı deyillər, ekspert belə yekunlaşdırır.

Ərzaq qiymətlərinin azalmasına baxmayaraq, bütün dünyada ekspertlər aclıq mövzusundan istifadə etməyə davam edir, bu ekspertlər üçün sualdır. Son illər dünyada ac insanların sayı artmaqda davam edir. Qiymətləri endirməklə bu artımın tempi azalacaq. BMT-nin baş katibi Antonio Quterreş təkcə 2020-ci ildə dünyada ac insanların sayının 161 milyon nəfər artmasından danışıb.

Bu gün dünya ölkələrində taxıl böhranının getdikcə dərinləşdiyi, idxaldan asılı ölkələrdə vəziyyətin getdikcə kritik hal alması ilə bağlı demək olar ki, hər gün məlumatlar alırıq. Doğrudur, elə ölkələr var ki, taxıl əkini üçün heç bir münbit şərait yoxdur, buna baxmayaraq əkin sahələrinin olmadığını da demək olmaz. Amma tam olaraq öz əhalisini təmin etmək imkanı yoxdur və ümidi yalnız idxala qalıb. Amma idxaldan qismən asılı ölkələrə bərabər, idxaldan az asılı ölkələrdə vəziyyət fərqlidir. Dövlət Statistika Komitəsinin 2020-ci il üzrə məlumatlarına görə, Azərbaycanın illik buğda tələbatı təxminən 3,5 milyon tondur. Bunun 57 faizini özümüz təmin edirik. Daxili tələbatın bir hissəsi idxal hesabına ödənilir. Son illər ərzində idxal olunan buğdanın 80 faizdən çox hissəsini Azərbaycan Rusiyadan idxal edir. Ölkədə 2021-ci il yanvar-noyabr aylarında buğda idxalı 1 milyon tondan çox olub ki, bu da ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 2,5 faizdən çox azdır.

Dünya bazarında taxıla olan tələbat artdıqca bu, özünü qiymət artımında da göstərir. Ötən ilin son rübünün statistikasına görə buğdanın qiyməti 12 faiz artıb. Əslində son illər havaların quraqlıq keçməsi, yanacaq növlərinin qiymətlərində artım və digər subyektiv müdaxilələr həyati vacib bu qidanın qiymətlərinə öz təsirini göstərib. Dünya bazarının əsas ixracatçı ölkələri - Çin, Rusiya və Ukraynada məlum səbəblərdən bazara kifayət qədər taxıl çıxara bilmir. Əvvəlki illərdən fərqli olaraq Hindistan və Çin istehsal etdiyi məhsulun xeyli hissəsini daxili bazara yönəldib. Ukrayna və Rusiya isə aralarında davam edən müharibə səbəbində taxıl bazarında görünmürlər. Bir sözlə dünya ”çörək imtahanı”na çəkilir. Bütün bu deyilənlərdən başqa qıtlığa səbəb həm də ötən il ərzində ABŞ, Kanada və Rusiyada müşahidə olunan quraqlıq və yüksək temperatur buğda istehsalına ciddi şəkildə təsir edib. ABŞ-da quraqlıq səbəbindən ötən ildə yazlıq buğda məhsulu 40 faiz azalıb. Azərbaycanda isə ötən il ümumi əkin sahəsinin təxminən 40 faizində buğda əkilib 1,9 milyon ton məhsul əldə edilib.

**V.VƏLİYEV**

# Sosial-iqtisadi inkişaf strategiyası qarşıdakı 5 il üçün nə vəd edir?

**Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan məsələlərlə bağlı növbəti yazımızda sosial sahədəki prioritetlərdən və sosial sahələr üzrə yeni inkişaf modelinin necə həyata keçiriləcəyindən danışacağıq.**

2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modeli Azərbaycanda çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyən edəcək. Bu mərhələdə başlıca məqsəd yüksək, dayanıqlı, inklüziv iqtisadi artım templərini bərpa etməklə, hər bir Azərbaycan Respublikası vətəndaşının sabit təminatlı həyat səviyyəsinə nail olmaqdır. Bu zaman başlıca vektor artımın səviyyəsindən çox, onun keyfiyyətinə əsaslanacaq.



Strateji dövrdə yeni artım modeli özəl təşəbbüslərə, keyfiyyətli və sağlam insan kapitalına söykənəcək. Dayanıqlı, inklüziv inkişafı təmin edən özəl təşəbbüslər və rəqabətqabiliyyətli açıq iqtisadiyyat modeli müasirləşmə strategiyasının əsas qüvvəsi olacaq. Rəqabətlilik ölkədə adambaşına düşən milli gəlirin uzunmüddətli dövrdə stabil artmasına və insanların həyat standartının yüksəldilməsinə imkan yaradacaq.

İqtisadiyyatın rəqabətliliyi əsas təməl olan məhsuldarlığın dərinləşməsi hesabına artırılacaq. Bu strateji dövrdə özəl və məhsuldar investisiyalar, keyfiyyətli institutlar, müasir bilik və bacarıqları olan insan kapitalı, sağlam cəmiyyət, innovasiya və yeni texnologiyalar, həmçinin makroiqtisadi sabitlik yüksək məhsuldarlığı təmin edəcək. İnkişafın əsas qüvvəsi sahibkar olduğundan, dövlət bütün qüvvəsini və resurslarını rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin dəstəklənməsinə yönəldəcəkdir. Bu model hamı üçün bərabər imkanlar və fürsətlər yaradacaqdır. Yalnız bacarıqlar bütün sahələrdə uğurun fundamental şərti olacaq.

Yeni inkişaf modeli çərçivəsində, işğaldan azad olunmuş ərazilər də əhatə edilməklə vahid iqtisadiyyat-müasir dəyər zənciri qurulacaq. Milli iqtisadiyyat dərindən şaxələnməklə qlobal dəyər zəncirinin ayrılmaz hissəsinə çevriləcək. Biznesin, ev təsərrüfatlarının və fərdlərin bütün bazarlarda effektiv fəaliyyəti üçün zəruri şərtlər təmin olunacaq, iqtisadiyyata cəlb edilən investisiyalar, mülkiyyətçilərin mülkiyyət toxunulmazlığı, iqtisadi maraqları, ölkənin tarixi milli dəyərləri qorunacaq və sosial-iqtisadi sahələr sürətlə müasirləşəcək.

Modelin aparıcı qüvvəsi olan Azərbaycan Respublikası vətəndaşının bilik, bacarıq və səriştələrinin artması onun gəlir qazanmaq imkanlarını genişləndirəcək və sağlam həyat tərzini təmin edəcək. Bilikli cəmiyyət müasir texnologiya və innovasiyaların həm yaradıcısına, həm də istifadəçisinə çevriləcəkdir. Ölkədə təbii resurslardan dayanıqlı istifadə etməklə, ekoloji mühiti qorumaqla iqtisadiyyatın effektivliyinə nail olunacaq. Yüksək inkişaf səviyyəsi eyni zamanda yüksək maddi və mənəvi rifahı təmin edəcək, dayanıqlı artan milli gəlirdən insanlar daha geniş şəkildə faydalanacaqlar.




Yeni sosial-iqtisadi inkişaf modelinin reallaşdırılması üçün ölkədə zəruri iqtisadi resurslar və müasir infrastruktur bazası mövcuddur. Strateji dövrdə sosial-iqtisadi inkişaf modeli əvvəlki dövrlərdə əldə edilmiş nailiyyətlərə əsaslanmaqla reallaşdırılacaq. Beynəlxalq nüfuza malik güclü lider, çətin dövrlərdə yüksək dövlət və vətəndaş həmrəyliyi, yeniliyə açıq və biliyi hər şeydən üstün tutan cəmiyyət, eləcə də uzun illər ərzində formalaşmış yüksək iqtisadi potensial yeni milli sosial-iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsinin təminatıdır.

Əlverişli demoqrafik vəziyyətin mövcudluğu, iqtisadi fəal gənc əhalinin işçi qüvvəsinin ümumi strukturunda yüksək paya malik olması və gənclər tərəfindən yeni innovativ metodların dərindən mənimsənilməklə tətbiqi daha effektiv nəticələrin əldə olunması üçün fürsətlər yaradır.

Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə strateji çərçivəyə əsasən əməkhaqları artırılacaq və hamı üçün layiqli həyat səviyyəsi təmin ediləcək. İşləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqları artırılacaq. Xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi qorunacaq.



Özəl sektorda yeni iş yerləri yaradılacaq, məşğulluq səviyyəsi artacaq. Yeni iş yerləri yaradan sahibkarlıq fəaliyyəti stimullaşdırılacaq. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək, bunun nəticəsində qeyri-dövlət sektorunda məşğul əhalinin payı 2021-ci ildəki 77,6%-dən artaraq 80%-ə çatdırılacaq.

Qeyri-formal məşğulluğun mərhələli azaldılması nəticəsində muzdla işləyənlər üzrə qeyri-dövlət sektorunun payı 50% (2021-ci il üzrə: 46,9%) təşkil edəcək. Bütün vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi qurulacaq. Pensiyaçılar üçün effektiv yığım, aztəminatlı əhali qrupu üçün zəruri ehtiyacların ödənilməsi, əlilliyi olan şəxslər üçün isə sosial yardımların əlçatanlığı artırılacaqdır. Pensiya sisteminin dayanıqlığı gücləndiriləcək, sosial sığortanın tətbiqi genişləndiriləcək. Hamı üçün bərabər iştirak imkanı yaradan sosial təminat və sosial xidmətlər sistemi inkişaf etdiriləcək.

Minimum pensiya məbləği minimum əməkhaqqı səviyyəsinin 75?80%-də saxlanılacaq. Qadınların iqtisadi imkanlara çıxışı yaxşılaşdırılacaq. Qadınların cəmiyyətdə iqtisadi fəallığı artırılacaq, onların yüksək əməkhaqqı olan iqtisadi sahələrdə məşğulluğu təşviq olunacaq. Qadınların uğurlu fəaliyyəti üçün peşə yönümü, karyera məsləhəti və digər aktiv məşğulluq tədbirləri genişləndiriləcək.

Qadınların orta aylıq əməkhaqqının kişilərin orta aylıq əməkhaqqına nisbəti 2021-ci ildəki 65,8%-dən 80%-ə çatacaq. Şəhərlə kənd arasında yaşayış standartlarındakı fərqlər azaldılacaq. Regionların iqtisadi və təbii potensialından səmərəli istifadə ediləcək, özəl investisiyaların cəlbi təşviq olunacaq, yeni çağırışlara uyğun regional inkişaf mexanizmləri dövlət tərəfindən dəstəklənəcək. Nəticədə, ümumi məhsul buraxılışında regionların xüsusi çəkisi 35%-dən 42%-ə çatdırılacaq.

Göründüyü kimi, bu beşillikdə sosial inkişaf sahəsində inqilabi dəyişikliklərin baş verəcəyi gözlənilir. Azərbaycan bir sosial dövlət kimi, bu sahədə dünyanın qabaqcıl ölkələrindən bidir. Təsadüfi deyil ki, bu yaxınlarda beynəlxalq təşkilatlar tərəfindən ölkəmiz dünyada sosial ədalətlilik cəhətdən ən yaxşı ölkə kimi elan olunub. Bu bir daha göstərir ki, Azərbaycan artan iqtisadi gücündən əhalinin sosial müdafiəsinin təmin edilməsi üçün çox böyük miqyasda istifadə edir. Yaxın illərdə iqtisadi imkanların daha da artracağı şübhəsizdir, bu da dolayı yolla əhalinin sosial rifahının getdikcə daha yüksək səviyyədə olacağını deməyə əsas verir.

Qlobal iqtisadi və sosial böhranların səngimədiyi, əksinə getdikcə gücləndiyi bir dövrdə Azərbaycanın belə yüksək sosial-iqtisadi səviyyəsi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətinin strateji məqsədlərini ortaya qoyur.

***Elçin***

# İKİNCİ HƏYAT...



## Bu həyatı yaşayanlara dövlətimizlə yanaşı, cəmiyyətimiz də kömək etməlidir



**Həyatın qəribəliyi ona sığınan müxtəlif taleli insanlarladır. Həyat kimini güldürən, kimini ağladan, kimini xoşbəxt, kimini bədbəxt edən həyatdır. Onun hər kəsə bir yanaşması var. Bu yanaşma ilə talelər müəyyənləşir, alın yazısına çevrilir, bir həyat boyu bu alın yazısı ilə yaşamağa məcbur oluruq. Nə etsək də yazılan taledən qaça, taleyimizi başqa cür yaşaya bilmirik... Elə buna görə də "həyat, sən nə qəribəsən", - deyirlər.**

Bu gün alın yazısına boyun əyib həyatını ailəsi ilə birlikdə deyil, uşaq evləri və internat məktəblərində yaşamağa məcbur olan uşaqlar haqqında söhbət açmaq istəyirəm. O uşaqlar ki, onlar iki həyat yaşayırlar, birini uşaq evləri və internat məktəblərində, digərini isə müstəqil həyatda. Birinci həyatlarından sonra gələn ikinci həyatda onları nələr gözləyir, onlar harada yaşayır, harada çalışırlar?..

## Fərqli alın yazısı...

Onların hər birini bir ana dünyaya gətirir. Lakin bir ana olaraq onlara ailə bəxş edə bilmir, bir ailədə firavan şəkildə, atalı-analı böyüməsini təmin edə bilmir. Çünki həyatın keşməkeşləri onu öz qurbanına çevirmiş, bir qadın aldadılmış, ana olmaq məcburiyyətində qalmışdır. Bir qadın 9 ay hamıdan gizlənə-gizlənə yaşamaq məcburiyyətindədir. Nə yediyi, nə içdiyi məlum olmayan, ailəsinin qəbul etmədiyi, hamiləlik səbəbindən artıq bir neçə aydan sonra işləyə bilməyən qadın nə yeyəcəyini belə bilmir. Uşağın atası olan kişi isə ortalıqda görünmür. Dünənədək min bir şirin sözlə, nəvazişlə aldatdığı qadını bu gün belə bir vəziyyətdə qoyub, qaçıb gizlənib. Çarəsiz qadın isə səfalət içərisində yaşamağa məcbur olub.

9 ay tamamdır, ya da heç tamam olmayıb. Hansısa stressdən, normal olmayan yaşam tərzindən uşaq dünyaya gəlir. Ana xilas olmaq üçün onu küçəyə atır, əlləri ilə internat evlərinə də verə bilmir. Utanır, kimliyini gizlədir. Hansı ki, hər bir qadın ana olmağı haqq etdiyi qədər, uşaqların hər birinin isti ana qucağı, ana südü, ana laylası haqlarıdır. Lakin belə analar bunları dünyaya gətirdiklərinə verə bilirlərmi? Övladları, balaları demirəm, dünyaya gətirdikləri, deyirəm. Çünki övlad, bala sözləri istəyərək dünyaya gələn uşaqlara aiddir. İstəməyərəkdən dünyaya gələn uşaqlar onların (valideyn demirəm) övladı adlandırmaq günahdır. Belə qadınlar bütün hallarda ana adını daşımağa layiqdirlərmi? Küçədə buraxıb getdikləri uşaqlar onların vicdanını sızladırmı? Bir səhvin qurbanına çevirdikləri uşaqlar-ailə mühitinə həsrət uşaqlar onların yadına düşürmü?..

Fərqli talerləri yaşayan tək istəməyərəkdən dünyaya gələn uşaqlar olmur. Baxmayaraq ki, illərdir televiziyalar, qəzet, jurnallar qohum evliliklərinin ziyanlarından danışır, lakin hələ də cəfəng təfəkkürə malik ata-analarımız öz övladlarını qardaş-bacılarının övladları ilə evləndirməklə onların həyata sağlamlığı məhdud uşaqlar gətirməsinə səbəb olurlar. Belə olanda isə bəzi hallarda həmin uşaqlara sahib çıxmaq istəmir, onların internat evlərində böyüməsinə qərar verirlər. Qohumluq evliliyindən, hansı ki, yaxın qohumlar bir-birinə bacı-qardaş sayılır, utanmırlar, lakin sağlamlıq imkanları məhdud uşaqları ailədə böyütməkdən utanır, onu özlərindən kənarlaşdırırlar. Bu cür uşaqlar isə sağlamlıqlarını əlindən alan "ata-ana" deyilənlərin həm də sevgisindən kənarda böyümək, yaşamaq məcburiyyətində qalırlar.

Həmçinin cinayət törətmiş valideynləri haqqında hökm çıxarılan, hər iki valideynini itirib qohumları sahiblik etməyən uşaqlar da bu fərqli tale yaşayan uşaqlarla birlikdə həyatlarını bölüşürlər. Lakin onların bir fərqi var. Bu, görüşdür. Müxtəlif səbəblərdən uşaq evi və internatlarda yaşayan uşaqların valideynləri ilə görüşü. Təbii ki, bu da kiminə qismətdirsə...

## Fərqli talelərin ünvanı

Uşaq evi və internatlar... Ailələr oxşar taleli, uşaq evi və internatlar isə fərqli taleli uşaqların ünvanıdır. İnternatlar belə uşaqların ilk evi, mənzilidir. Buradakı uşaqları bir-birinə bağlayan, isindirən, dostlaşdıran fərqliliyin yaratdığı oxşar taleləridir. Uşaq evlərində və internat məktəblərində çalışan qadınlar onların anası ola bilirlərmi? Ana sevgisini, istiliyini onlara yaşada bilirlərmi? Bəli, bu qalır onların vicdanına. Bir uşaq üçün anasından əziz ikinci insan ola bilmədiyini bilirik. Lakin bu müəssisələrdə qadınlarımız var ki, öz övladlarına verdiyi sevgidən bu uşaqlara da pay ayırır. İnternatlarda çalışan elə qadınlar da var ki, onlara sevgi vermir, vermək istəmir, bəzən də verə bilmir. Bax uşaqların bu cür ikinci analarla rastlaşmaları da onların talelərindəndir. Baxmayaraq ki, onlar bu sevgi, istilik üçün əmək haqqı alırlar, lakin əsirgəyirlər bu sevgini. Uşaq evi və internat məktəblərinə nə qədər nəzarət olunsa da, uşaqlarla müəllimlərin, tərbiyəçi - dayələrin münasibətləri diqqətdə saxlansa da, lakin bu, bir vicdan hissi, insanpərvərlikdir. Zorla sevgi olmayanda, olmur. Lakin vəzifə borcunu unudanlar haqqında da ciddi cəzaların olması vacibdir.

Düşünəndə ki, fərqli taleləri yaşamaq məcburiyyətində qalan bu uşaqların ünvanları uşaq evləri və internat evləridir, onların gələcək həyatda yaşamaq təməlləri də burada qoyulur, bu halda uşaq evi və internat məktəblərində çalışan ən kiçik vəzifəlidən tutmuş rəhbərlərədək, hər kəs öz işini ləyaqətlə həyata keçirməlidir. Çünki bu ünvanlarda böyüyən uşaqların gələcək həyatda səhvləri də, düzləri - uğurları həmin müəssisələrin adı ilə qoşa çəkiləcək. Bu müəssisələrdən ayrılan gənclərin həyatdakı uğurları ilə qürur duyub, kütləvi informasiya vasitələrinə müsahibələrində onların adını dəfələrlə vurğulayan insanlar, həm də sabah buradan ayrılan bir uşağın uğursuzluğunu gizlətməyə çalışacaq. Çünki hər iki uşaq onların yetirmələridir. Bu halda isə cəmiyyətdə belə bir fikir formalaşır ki, internat uşaqları bacarıqsızdır, tərbiyəsizdir. Lakin bu sözlər onların ünvanına yox, onların tərbiyəsi ilə məşğul olanların ünvanınadır.

Necə ki, ailələrimizdə böyütdüyümüz övladlarımızın bütün hərəkətlərinə, davranışlarına valideyn olaraq birbaşa cavabdehik, bu müəssisələrdəki uşaqlara da oradan əmək haqqı alanlar cavabdehdirlər. Uşaqların sabahkı həyatında olan istər müsbət, istərsə isə mənfi hallar bizlərin onları düzgün tərbiyə etməyimizdən və etməməyimizdən asılıdır.

## Dövlət vətəndaşını düşünür

Müstəqilliyimiz ikinci dəfə bərpa olunandan sonra bütün sahələr kimi, uşaqların sağlamlığı, təhsili, reabilitasiyası da diqqətdə saxlanılan məsələlərdən oldu. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum edilmiş uşaqların sığındığı uşaq evləri və internat məktəbləri də sovet dövründən qalma köhnəlikdən azad edilməyə başladılar.

Hələ 2000-ci illərin ilk onilliyindən başlayaraq ata-ana himayəsindən məhrum olan uşaqlara qayğı ilə yanaşmaq, onların mənəvi sarsıntı yaşamadan cəmiyyətə layiqli vətəndaş kimi yetişmələrinə, sosial problemlərinin həllinə dəstək göstərmək Heydər Əliyev Fondunun fəaliyyətində aparıcı xətt təşkil edib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva tərəfindən uşaq evlərinə və internat məktəblərinə göstərilən böyük diqqət onun Azərbaycanda sağlam təfəkkürlü insan cəmiyyətimizin yetişməsi sahəsində vətəndaşlıq mövqeyinin, nümunəvi vətənpərvərliyinin göstəricisidir. Bu baxımdan Heydər Əliyev Fondunun Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı xüsusi aktuallığa malikdir. Mehriban xanım Əliyeva 2005-ci ilin əvvəllərində Bakıda və əksər rayonlardakı uşaq evləri və internat məktəblərində olduqdan sonra bu proqramın hazırlanıb həyata keçirilməsini məqsədəuyğun hesab edib. Ölkədəki uşaq evləri və internat məktəblərində mövcud problemlərin həllinə yönələn bu proqram ötən illərdə Heydər Əliyev Fondunun fəaliyyətinin başlıca istiqamətlərindən biri kimi diqqəti cəlb edib.







Proqramın ilkin mərhələsində aparılan monitorinqdən sonra uşaq müəssisələrindəki problemlərin həllinə yönələn dörd əsas istiqamət - texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilmiş, müəssisələrin böyük əksəriyyətinin məhz təmirə, yenidənqurmaya və texniki təchizata daha çox ehtiyacı olduğundan ilk növbədə texniki dəstək istiqaməti üzrə işlərə başlanılmışdır. İndiyədək 30-dan artıq uşaq evi və internat məktəbində yenidənqurma və tikinti-təmir işləri aparılıb. Onların zəruri avadanlıqlarla təmin edilməsi, kitabxanaların yeni ədəbiyyatla zənginləşdirilməsi, müasir informasiya texnologiyalarının uşaqların ixtiyarına verilməsi, sinif otaqlarının interaktiv təhsil üçün uyğunlaşdırılması, o cümlədən yay istirahət düşərgələrinin inşa edilməsi də diqqət mərkəzində olub.

Heydər Əliyev Fondu daim ölkəmizdə bütün uşaqların, həmçinin də bu qəbildən olan uşaqların yanında olub. Mehriban xanım Əliyevanı tez-tez uşaq evlərində, internat məktəblərində görmüşük. Hər gördüyümüzdə bu müəssisələrin inkişafı üçün yeni layihələr, işlər həyata keçirilib. Uşaqların sağlamlığı daim diqqətdə saxlanılıb. Bayramlarda uşaqlarla görüşmək, onlarla birlikdə vaxt keçirmək ənənə şəklini aldığından həmişə uşaqlar bayram tədbirləri üçün toplaşanda Mehriban xanımı gözləyirlər. Bütün bunlar isə böyük humanizm və insanpərvərlik nümunələridir. Uşaqlara olan bir qadın nəvazişi, bir ana sevgisi Mehriban xanım Əliyevanı hər kəsə sevdirən cəhətlərdir.

"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün inşa edilmiş 50 mənzillik, 100 nəfərlik yaşayış binası ictimai narahatlığa səbəb olan ciddi bir problemin həllinə yönəlmiş tədbirdir. Belə ki, əvvəllər uşaq evlərini tərk edən qızlar taleyin hökmünə buraxıldığından onların sonrakı həyatını izləmək bir çox halda mümkün deyildi. Yeni yaşayış binası bu problemin həllinə xidmət edir. Bu, bir valideyn yanaşması, qədirbilənliyi, qızlarımızın qorunması üçün atılmış ən gözəl addımdır.

Bu layihəni həyata keçirməklə Fondun məqsədi həm də cəmiyyətin diqqətini maddi və mənəvi qayğıya daha çox ehtiyacı olan uşaq evlərinə, internat məktəblərinə yönəltmək, xəstə, kimsəsiz uşaqlara qayğı örnəyini başqalarına təlqin etmək idi ki, həyata keçirilən tədbirlərdən günlərlə danışmaq olar.

## Bəs cəmiyyət necə, bu sahədə dövlətimizə kömək edirmi?

Uşaq evləri və internat məktəblərində cəmiyyətimizin üzvlərinin tez-tez olması vacibdir. Bu, orada böyüyən və təhsil alan uşaqların gələcəkdə cəmiyyətə inteqrasiyasına bu gündən bir töhfədir. Lakin vəziyyət belədirmi? Əslində çox zəifdir. Bu müəssisələrə üz tutanlar çox azdır. Hansı ki, tələbəsindən tutmuş digər peşə, sənət sahiblərinin bu müəssisələrdə olmasının buradakı uşaqların dünyagörüşünə, intellektinə nələr bəxş edəcəyi ölçüyəgəlməzdir. Bu, mənəvi dəstəkdir, gəlin uşaqlardan əsirgəməyək.

Ölkəmizdə saysız iş adamları, sahibkarlar fəaliyyət göstərir. Onlar yaradılan şərait nəticəsində iş adamlarına, sahibkarlara çevriliblər. Uşaq evləri və internat məktəblərindəki uşaqlar da bu ölkənin vətəndaşlarıdır. Onlara qayğı göstərməkdə dövlətimizə kömək etmək hər kəsin borcudur. Çünki bu uşaqların gələcəyi hər birimizi düşündürməlidir.

Dövlətimiz bu müəssisələr və burada yaşayıb təhsil alan uşaqlar üçün ardıcıl tədbirlər həyata keçirir. Bu işdə iş adamları və sahibkarların da dövlətimizə kömək göstərməsi bu qəbildən olan uşaqların problemsiz gələcəyi deməkdir.

Müstəqil həyata qədəm qoyan gənclərin işlə, evlə təminatı məsələsindən danışarkən bu barədə qanun olduğunu vurğulamaq istəyirəm. Həmin qanunla onların mənzil və işlə təminatı tənzimlənir. Lakin elə hallar var ki, həmin uşaqlar mənzillə təmin oluna bilmirlər. Bəs bu halda onlar nə etməlidirlər?

Yuxarıda da qeyd etdiyimiz ki, qızların 18 yaşdan sonra yaşaması üçün bina tikilib. Bəs oğlanlar? Onlar da bir işin sahibi olunca, yaşayış üçün bir ev tapınca sığınacaqları bir yer olmalıdır axı. Belə bir bina oğlanlar üçün də tikilərsə, çox yaxşı olmazmı?

Həm qızların, həm də oğlanların işlə təmin olunmasını da diqqətimizdə saxlamaqla bu qəbildən olan uşaqları cəmiyyətimizin fəal üzvlərinə, problemsiz yaşayan təbəqəsinə çevirmiş olarıq. Onlar çox sayda deyillər ki... Hər sahibkar, hər iş adamı onların 5-10-na köməklik göstərərsə, məsələ öz həllini tapmış olar. Biz bütün məsələləri dövlətimizin həyata keçirməsinə buraxmamalıyıq. Biz dövlətimizə kömək etməliyik, gələcək cəmiyyətimiz naminə...

## İkinci həyat...

Bəli, 18 yaşı tamam olan bu gənclər qarşısında artıq ikinci bir həyat başlayır. Düşünəndə ki, söhbət bir evin dörd divarı arasında böyüyüb, evdən bayıra çıxmayan, cəmiyyət arasında olmayan gənclərdən gedir, narahat olmaya bilmirsən. Çünki cəmiyyətə bələd olmayan gənc sözsüz ki, həyatın maneələrinə sinə gərməkdə çətinlik çəkəcəkdir. Belə olanda isə cəmiyyət onlara "internat uşaqlarıdır da, ta artıq nə gözləyirsiniz ki?", - deyəcəkdir. Onları hansı ata-anaların dünyaya gətirməsi mövzuya çevriləcəkdir.

Lakin bu, heç də belə deyil. Hansı valideyndən dünyaya gəlməsinə baxmayaraq bu gün onları biz tərbiyə ediriksə, o valideynləri yox, özümüzü qınamalıyıq. Onlara təhsil verənləri qınamalıyıq ki, nə üçün internat məktəblərindən ali məktəblərə qəbul sayı az olur? Nə üçün bu statistikanı qarşısına qoyub araşdıran yoxdur? Nə üçün onlar ali təhsilli olmurlar ki, iş yeri tapmaqda problem yaşamayalar? Bax, bunları düşünməliyik.

Bu gənclərə ikinci həyatlarında hər birimiz köməklik göstərməliyik. Çünki onlar cəmiyyətimizin nümayəndələridirlər. Həyatdan, valideynlərindən, bir də alın yazılarından aldıqları zərbəni biz bir daha onlara endirməməliyik. Kimsəsizə əl tutmaq müqəddəs kitabımız Qurani-Kərimdən də nəsihətdir bizə. Onun savabları isə ölçüyəgəlməzdir.

İkinci həyat... Bu həyatı yaşayanlar ailə, övlad istəyərlər. Yaşamadıqları, yaşaya bilmədikləri hər şeyi istəyərlər. Lakin gücləri çatırmı buna? Xeyir, çatmır. Çünki biz valideynlər övladlarımızın arxasında ola-ola onların arzularını bəzən gerçəkləşdirə bilmirik. Bu uşaqların arxasında kim var? Gəlin biz olaq onların arxasında. Onları da övladlarımızdan biri hesab edək. Gücümüz çərçivəsində nə edə biliriksə, edək.

İkinci həyat onlar üçün çox təhlükəlidir. Onlar ehtiyacdan, təcrübəsizlikdən, bacarıqsızlıqdan səhv edə bilərlər. Gəlin himayədarlıq edək. Onları ailə, iş sahibi edək. Cəmiyyətimizin səhv etmiş nümayəndələrinin səhvini biz düzəldək. Sağlam gələcəyimiz, gəncliyimiz, varlığımız naminə...

**Mətanət MƏMMƏDOVA**



TƏHLİL

# Turizmin inkişafında yeni mərhələ başlayır

Turizm insanların səyahətlərinin təşkilinə, onların mənəvi rahatlığına xidmət etməklə bərabər, maarifləndirmək, dünyagörüşünün inkişafı baxımından əhəmiyyət kəsb edən bir sahədir. Bütün bunlarla yanaşı, turizm milli maraqların və iqtisadi inkişafın əsas istiqamətlərindən biridir. Reallıqlar göstərir ki, müasir dövrümüzdə Azərbaycanın turizm ölkəsinə çevrilməsi və dünya arenasında öz sözünü deməsi üçün böyük potensialı vardır. Dünya insanın səyahətinin təşkili üçün zəngin təbii sərvətləri, qədim tarixi və memarlıq abidələri, özünəməxsus mentaliteti, əlverişli ictimai-coğrafi mövqeyi olan Azərbaycanın həm də Xəzərin sahil zonaları turistləri üçün olduqca əlverişlidir. Ölkəmizdə yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizmin formalaşması da turistlərin istirahətində önəmli amillərdir.

## TURİZM SAHƏSİNDƏ 128 FAİZ ARTIM QEYDƏ ALINIB

Ötən ay ölkəyə gələn turistlərin sayına diqqət etsək görərik ki, Azərbaycan turistlərin marağında olan bir məkandır. Cari ilin təkcə iyulda Azərbaycana 193 416 əcnəbinin səfər etməsi əlbəttə ki, kifayət qədər yaxşı göstəricidir. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu 131 faiz çoxdur. Belə ki, ötən ilin iyulunda ölkəyə 83 656 xarici turist gəlib.

Bu ilin yanvar-iyul ayları ərzində isə ölkəyə 832 186 əcnəbi gəlib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 128 faiz artım qeydə alınıb. Belə ki, ötən 2021-ci ilin ilk 7 ayında ölkəyə 365 473 xarici turist səfər etmişdi. Ən çox turist isə Rusiya (60,2 min), Səudiyyə Ərəbistanı (26,9 min), Türkiyə (22,6 min), İran (13,5 min) və Pakistandan (7,3 min) gəlib.

Ziyarətçilərin regionlar üzrə payı Yaxın Şərq üzrə 25,4, Asiya ölkələri üzrə 12,4, Avropa üzrə 7,2, digər bölgələr üzrə 1,7 faiz; ölkələrdən isə xüsusi olaraq Rusiya üzrə 31,1, İran üzrə 7 faiz olub.

Qeyd edək ki, pandemiyadan öncəki illə müqayisədə ölkəyə gələn əcnəbilərin sayı hələ də 46 faiz azdır. Belə ki, 2019-cu ilin iyulunda ölkəyə 365 153 ziyarətçi gəlmişdi. Həmçinin 2019-cu ilin yanvar iyul aylarında isə gələnlərin sayı (1 774 877) bu ilin müvafiq dövrü ilə müqayisədə 55 faiz çox olub.

Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır. Bu, onu göstərir ki, yaxın gələcəkdə Azərbaycan turistlərin sayında böyük artım olacaqdır. Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır.

Böyük İpək Yolunun kəsişməsində yerləşən Azərbaycanın coğrafi mövqeyinin onu müxtəlif mədəniyyətlərin bir araya gəlməsinə və birlikdə inkişaf etdiyi məkana çevrilməsinə şərait yaradır.

Bu gün Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir. Beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənmiş, turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən dövlət proqramları, layihələr turizm sahəsində böyük uğurlara səbəb olub.

## TURİZM BAZARININ HÜQUQİ ƏSASLARI BƏRQƏRAR OLDU

Yaxın tarixi keçmişimizə nəzər salsaq görərik ki, müstəqillik qazandığımız ilk illərdə Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olunmuşdur. Belə ki, həmin illərdə müharibə və sərhədlərdəki qeyri-stabil vəziyyət turizm sistemində bir sıra problemlərin yaranması ilə nəticələndi. Ötən əsrin 90-cı illərin sonunda turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında əksini tapdı. Belə ki, Azərbaycanda turizm sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ölkənin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və s. sahələrdə məqsədyönlü tədbirlər planı həyata keçirilməyə başlandı. 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilib, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu. Ulu Öndərin məqsədyönlü fəaliyyətini davam etdirən Azərbaycan Prezident İlham Əliyevin bütün sahələrə olduğu kimi turizm sektoruna da ayırdığı diqqətin nəticəsi olaraq uğurlu nəticələr əldə edildi. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarixmədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi.

## TURİZM COĞRAFİYASI GENİŞLƏNİB

Əlbəttə ki, turizm imkanlarının təbliği baxımından da görülən işlər bu sahənin inkişafında mühüm rol oynayan faktorlardır. Ölkənin turizm potensialının beynəlxalq aləmdə tanınması məqsədilə Almaniya, Avstriya kimi, ölkələrdə info-turlar təşkil edildi. Azərbaycanda ilk dəfə olaraq Turizm Filmləri Festivalı keçirildi. Turizm sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Sazişlər çərçivəsində müəyyən işlər görüldü. Belə ki, Azərbaycan ilə Moldova, Belarus, Qətər, Yunanıstan, Qazaxıstan, İordaniya Haşimiyyə Krallığı, Fransa və onlarla başqa dövlətlər arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişlər bağlandı.

Respublikamızın turizm potensialını əks etdirən reklamlar xarici ölkələrdə nəşr edilən turizm xarakterli jurnallarda yerləşdirildi. Son illər ərzində ölkəmizdə mehmanxana və mehmanxana tipli obyekt tikilərək istifadəyə verilib. Azərbaycanın turizm coğrafiyası genişlənib. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir.

"Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsinə və turizm sahəsinin daha da inkişaf etdirilməsinə müsbət təsirini göstərir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması davamlı olaraq həyata keçirilir. Belə ki, turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi bu sahənin inkişafında mühüm rol oynayır. Qədim tarixi abidələri, coğrafi şəraiti baxımından diqqətdə olan Azərbaycanın bir çox məkanlarına turistlərin axını davam etməkdədir. Belə ki, əlverişli iqlim şəraiti, coğrafi mövqeyi, qədim tarixi abidələri, zəngin fauna və florası ilə seçilən Azərbaycan rayonlarında turistlərin istirahətinə geniş imkanlar var.

Görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Erməni sindromu fonunda
# ERMƏNİ AĞILSIZLIĞI

**Zaman-zaman ermənilərin gülünc uydurmalarının şahidi olmuşuq və qondarma "Böyük Ermənistan" xülyalarından tutmuş, "dənizdən dənizə" iddialarına qədər bütün qeyri-sağlam, xəstə təxəyyüllərinin necə ikrah doğurduğu da sirr deyil. Həmçinin, o da sirr deyil ki, ermənilərin özlərindən belə qeyri-normal, həqiqətə uyğun olmayan fikirlər, iddialar uydurması, buna bütün bəşəriyyətin inanmasına ümid etmələri, hətta öz yalanlarına özlərinin də inanmaları artıq "erməni xəstəliyi" kimi tanınır. Bu xəstəliyə düçar olanlar indi də tamamilə ağıllarını itiriblər və olmayan ağıllarına nə gəlirsə danışırlar və bu dəfə də ağılsızlıqları ortaya qoyurlar ki, tezliklə bunun da "erməni ağılsızlığı" kimi qeydə alınacağına zərrə qədər şübhə yoxdur.**

Bu vaxta qədər ermənilərin sərsəm fikirlərini, uydurmalarını, yalanlarını dəfələrlə eşitmişdik və bütün dünyaya səpələnən bu toplumun yalan üzərində qurulan yalançı strategiyalarının nəyə hesablandığı da özlərindən başqa heç kim üçün ağlabatan sayılmayıb. Dünya xalqları və dövlətləri siyasi, iqtisadi, mədəni və digər sahələrdə irəliləməyə, inkişaf etməyə çalışdıqları halda, ermənilər yalnız uydurmaları, yalanlarını inkişaf etdirməyə daha çox güc, enerji sərf ediblər və hələ də sərf etməkdədirlər.

Hələ də hamını öz yalanlarına inandırmağa çalışdıqları halda, deyəsən artıq özləri öz yalanlarına, uydurmalarına inanmağa başlayıblar. Biçarələr bu məsələyə o qədər fokuslanıblar ki, artıq ağıllarını da itirməyə başlayıblar. Əks halda, tamamilə məntiqsiz, gülünc fikirlər ortaya ataraq ağılsız təkliflər irəli sürməzdilər.

İkinci Qarabağ müharibəsindən, bu müharibədəki rüsvayçı məğlubiyyətlərindən sonra ermənilərin ağıllarını başlarına toplayacağını tək biz yox, bütövlükdə dünya ictimaiyyəti çox gözlədi, amma deyəsən hələ bundan sonra da çox gözləməli olacağıq, çünki öz qanunsuz, mənfur əməllərinə görə başlarına gələnlərdən nəticə çıxarmadıqları göz önündədir. Bütün gücü ilə müharibəyə qatılan, buna baxmayaraq, Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən, cəmi 44 günə rüsvayçı məğlubiyyətlə qarşılaşan, hərbi gücü, texnikası və demək olar ki, bütün arsenalını itirən, təslim olduğunu rəsmən etiraf edən və kapitulyasiya sənədinə imza atan Ermənistan yox dərəcəsində olan gücü ilə yenə də "dingildəyirsə", deməli heç bir nəticə çıxarmayıb və buna ağılsızlıq demək səhv sayılmaz. Silahlı qüvvələri ən tez zamanda darmadağın edilən və çarəsiz qalan Ermənistanın indi Qarabağ ərazisində qalan tör-töküntülərinin baş qaldırıb, təxribatlar törədib nəyə isə ümid etmələri, sadəcə axmaqlıqdır. Doğrudur, bu axmaqlıqları hər dəfə olduğu kimi, onların özlərinə baha gəldi və bu dəfə "Qisas" əməliyyatı ilə yenə də dəmir yumruq başlarına endirildi, amma deyəsən anlamaq kimi bir niyyətləri görünmür, deməli ağılsızlıqları ortaya çıxır.

Tez-tez efirlərə qonaq olan erməni politoloqlarının, bir sözlə, başbilənlərinin axmaq, ağılsız, düşüncəsiz fikirlər səsləndirdikləri də artıq təəccüblü görünmür və deyəsən bütün dünya buna, "erməni ağılsızlığına", həmçinin axmaqlığına alışqan olub. Bir də görürsən Hinsitanı köməyə çağırırlar, müttəfiq seçmək təklifi irəli sürürlər, gah da bütün dünyaya meydan oxuyurlar. Utanmadan Rusiyanı, hətta Amerika Birləşmiş Ştatlarını, Avropa dövlətlərini ələ salır, onlara dövlətçilik dərsi keçməyi özlərinə rəva bilirlər ki, bu həyasızlıqlarının son həddinə axmaqlıq, ağılsızlıq deməklə fikri tam ifadə etmək də olmur. Özlərindən fantastik fikirlər uyduran, gülünc fikirlər səsləndirən bu toplumun başbilənlərinin fikirlərinə məhəl qoyulmaması isə o deməkdir ki, artıq hamı tərəfindən axmaq, ağılsız kimi qəbul edilirlər. "Dəliyə, ağılsıza baş qoşmazlar", deyə zərb məsəlində qeyd olunduğu kimi, bunlara da kimsə baş qoşmaq istəmir, amma cavablarını vermək heç zaman gec deyil, necə ki, son təxribatlarına görə Azərbaycan Ordusu tərəfindən layiqincə cavab verildi. Yetər ki, bir qədər ağıllarını başlarına qoysunlar, təbii ki, əgər varlarıdısa.

Dəfələrlə Rusiyaya qarşı ultimatumlar səsləndirən Ermənistan cəmiyyəti hələ də başa düşə bilmir ki, birdəfəlik tarixin arxivinə yazılmalarından onları xilas edən məhz ruslar oldu. Bu ağılsızlar hələ də anlaya bilmirlər ki, Rusiya tərəfi vasitəçilik etməsəydi, bir neçə günün içərisində Azərbaycan Ordusu İrəvanın mərkəzində olacaqdı, nəinki Xankəndidə. Ermənistanın hansı vəziyyətində köməyinə Rusiyanın yetişməsini, ermənilərin imdadına çatmasını dərk edə bilməyən axmaqlara ağılsız deməyəsən, bəs nə deyəsən? İndi öz xilaskarlarına nankorcasına bozaran topluma və onun sərsən fikirlər səsləndirən başbilənindən tutmuş, axmaq-axmaq danışan hər bir nümayəndəsinə axmaq, ağılsız deyilməsi heç də qəbahət, yaxud qeyri-etik sayılmaz, əksinə, ən münasib seçilmiş ifadə olar.






Özlərini yalandan oda-közə vuran, əzilmiş, tapdalanmış xalq, toplum kimi göstərməyə çalışanlar təxribatlar törədənlərdirsə, bu göstərmələrinə inanan olarmı? Rusiya tərəfi, eləcə də bütün dünya görmürmü ki, ən çıxılmaz vəziyyətlərində də bunlar öz məkrli əməllərindən, çirkin siyasət yürütmələrindən, təxribatçılıqlarından qalmırlar, terrordan, separatçılıqdan əl çəkmirlər? Kimi istəsələr günahlandırmağı özlərinə rəva bilənlər öz əməllərinə görə cəzalandırılmayacaqlarınımı düşünürlər? Əlbəttə, belə düşünmələri də qeyri-normal təzahürdür və bunun da adı elə axmaqlıq, ağılsızlıqdır, çünki edəcəkləri təxribatlara layiqincə cavab veriləcəyi onlara bildirilib və özlərini qanmazlığa vurmaq çıxış yolu deyil, tezliklə "erməni ağılsızlığı" kimi qeydə alınacaq xəstəlikləridir.

Xatırladaq ki, Qarabağ ərazisindəki rus sülhməramlı kontingentinin yerləşdiyi ərazilərdə ermənilərin son təxribatları onlara bildirildiyi kimi, Azərbaycan tərəfindən layiqincə cavablandırılıb. Erməni təxribatlarının nəticəsi olaraq bir hərbi qulluqçumuzun şəhid olması fonunda "Qisas" əməliyyatı onlara əsl cavab sayılır. Göründüyü kimi, sözügedən əməliyyatın əsl cavab olduğunu rus sülhməramlıları da qəbul ediblər və onların məsələyə qarışmamaları da gerçəkliklərin nədən ibarət olduğunu, yəni erməni axmaqlığını, ağılsızlığını təsdiqləyir. Ermənilər tərəfindən müdaxilə edilməməkdə günahlandırılan rus sülhməramlıları görmürlərmi ki, təxribatları törədənlər kimlərdir? Görmürlərmi ki, onların yerləşdirildiyi ərazilərdə sığınacaq verilənlər həmişə olduğu kimi, yenə də nankorcasına davrandılar? Fərqində deyillərmi ki, onların yerləşdikləri ərazilərə sığınanlar istənilən anda baş qaldırıb təxribat törətməkdə mahirdirlər? Bəlkə Azərbaycanın öz ərazilərində separatçı-terrorçuların, təxribat törədənlərin əməllərinin qarşısını almaq kimi bir hüququnun olduğunu rus sülhməramlıları bilmirlər? Əlbəttə ki, bilirlər və ona görə də qarışa, müdaxilə edə bilmirlər, hansıki bunu ermənilər özləri istədikləri kimi adlandırırlar və səs-küy salırlar ki, rus sülhməramlıları vəzifələrinin öhdəsindən gələ bilmirlər, yaxud gəlmirlər. Halbuki, bu zamana qədər həmin o qeyd olunan ərazilərdə məskunlaşan ermənilər, separatçı-terrorçular rus sülhməramlılarının kölgəsinə sığınaraq mövcudluqlarını qoruyub saxlayıblar, ərköyünlüklər ediblər, bunu nankorcasına təkzib etsələr də.

Artıq rus sülhməramlıları da, bütövlükdə Rusiya tərəfi də görür ki, bu ağılsızlar ağıla gələn deyillər və bu baxımdan müdafilə edilmələrini, ermənilərin himayə edilməsini bundan sonra yuxularında da görə bilməzlər. Bunu başa düşən həmin o ermənilər indi də rus sülhməramlılarının əvəzinə Fransa sülhməramlılarının yerləşdirilməsi arzusuna düşüblər, hansı ki, bu axmaqlığı özlərindən başqa kimsə nümayiş etdirə bilməzdi. Maraqlıdır, bunlar sülhməramlı seçiminə malik olduqları qənaətindədirlər, yoxsa hansısa səlahiyyətlərinin olduğunu düşünürlər? Elə zənn edirlər ki, kimi istəsələr onu da sülhməramlı təyin edə bilərlər? Bunların bu qədər ağılsız olduqları kimsənin eyninə belə gəlməzdi. Bilmirlərmi ki, baş nazirləri Paşinyan kapitulyasiya sənədini imzaladığı vaxtlarda danışıqlar üçtərəfli olub? Yoxsa bu vaxta qədər üçtərəfli danışıq nə olduğunu anlamayıblar?



Fransanın prezidenti Emmanuel Makron hansısa formada, yalan-doğru ermənilərin təəssübkeşi kimi çıxış edirsə, bu, ermənilərə haqq vermir ki, Fransanın sülhməramlıları barədə mənasız xülyalara düşsünlər. Həqiqətən də biçarə halda olduqları qənaətindədirlər və sanki, suda boğulan saman çöpünə əl atdığı kimi, hər şeyə, hər vasitəyə əl atmaqdan çəkinmirlər. Yalnız doğru yola meyilli deyillər. Nə beynəlxalq hüququn tələblərini anlamırlar, nə öhdəliklərini dərk etmirlər, nə də aqibətlərini görmürlər. Dərk etmirlər ki, sərhədlərin delimitasiyası, demarkasiyası, sülh danışıqları və normal qonşuluq münasibətləri onlar üçün yeganə çıxış yoludur. Çıxış yolunu müəyyənləşdirə, başa düşə bilməyənlər həqiqətə uyğun olmayan, gülünc fikirlərlə öz başlarını qatır, özlərini aldadırlar ki, bu, axmaqlıq, ağılsızlıqdır, özü də məlum erməni sindromu fonunda bu dəfə, erməni ağılsızlığıdır.

***İnam Hacıyev***

# Xalqımız və dövlətimiz müqəddəs şəhidlərimizin əziz xatirəsini həmişə uca tutur!

*Qazaxda şəhid Elməddin Nəsibovun əziz xatirəsi yad edildi*

Avqustun 8-də YAP Qazax rayon təşkilatı Aparatının işçiləri, partiya fəalları tərəfindən İkinci Qarabağ müharibəsi şəhidi Elməddin Yusif oğlu Nəsibovun doğum günündə xatirəsi ehtiramla yad edildi.Mərasim iştirakçıları rayonun Ağköynək kənd qəbiristanlığında uyuyan şəhidimizin məzarını ziyarət edərək qəbri üstünə qərənfillər düzdülər və ruhuna dualar oxudular.Ziyarət zamanı çıxış edən YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev bildirdi ki, Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında Müzəffər Azərbaycan Ordusu 44 gün ərzində xalqımıza



möhtəşəm qələbə sevinci bəxş etdi. Bu qələbə sevincini bizlərə yaşadan oğullarımızdan biri də Elməddin Nəsibovdur. O, şərəfli bir döyüş yolu keçmişdir. Elməddin Nəsibov göstərdiyi igidliyə və şücaətə görə "V?t?n u?runda", Döyüşdə fərqlənməyə görə", "F?zulinin azad olunmas?na g?r?" medallar? ilə təltif olunmuşdur. Onun göstərdiyi qəhrəmanlıq gələcək nəsillərə nümunədir. Qədirbilən xalqımız və dövlətimiz müqəddəs şəhidlərimizin əziz xatirəsini həmişə uca tutur, şəhid ailələrinə və qazilərə daim yüksək səviyyədə diqqət və qayğı göstərir.A.Nəbiyev son günlər cəbhədə baş verən hadisələrə də toxunaraq qeyd etdi ki, Müzəffər Azərbaycan Ordusu hər an hər cür təxribatların qarşısını almağa qadirdir. Bu günlərdə keçirilən "Qisas" əməliyyatı da bunu bir daha sübut etdi. Güclü və dayanıqlı iqtisadiyyata, müstəqil siyasətə, qüdrətli orduya malik Azərbaycan qarşısında revanşist qüvvələr heç nəyə nail ola bilməz.



# Şəhid Hüseyn Tağıyevin əziz xatirəsi yad olunub





44 günlük Vətən mühairbəsi şəhidi baş çavuş Tağıyev Hüseyn Oktay oğlunun doğum günündə əziz xatirəsi yad olunub. Yasamal rayon icra hakimiyyəti, YAP Yasamal rayon təşkilatı, şəhidin ailə üzvləri, şəhid ailələri və rayon ictimaiyyəti tərəfindən II Fəxri Xiyabanda 44 günlük Vətən müharibəsi şəhidi, baş çavuş Tağıyev Hüseyn Oktay oğlunun doğum günü münasibəti ilə məzarı ziyarət olunub, ruhuna dualar oxunub.

Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Cənab Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, Cənab Prezident İlham Əliyevin Sərəncamına əsasən, Tağıyev Hüseyn Oktay oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Nəzakət Ələddinqızı**

# "Nar" Azərbaycanda ilk üztanıma texnologiyalı eSIM xidmətini təqdim etdi




**"Nar" mobil operatorlar arasında ilk üztanıma texnologiyasının tətbiq edildiyi eSIM xidmətini təqdim etdi. Bu xidmət sayəsində həm mövcud, həm də yeni abunəçilər eSIM nömrəni heç yerə getmədən onlayn şəkildə əldə edə bilərlər. eSIM nömrəsini əldə etmək üçün esim.nar.az səhifəsində lazım olan məlumatları daxil edib QR kod vasitəsilə xidməti aktivləşdirə bilərsiniz.**

Qeyd edək ki, SIM kartlarla müqayisədə bu xidmətin bir çox üstünlükləri var. eSIM xidməti nömrənin zədələnməsi, itməsi və ya dublikatı üçün müştəri xidmətlərinə yaxınlaşma zəruriyyətini aradan qaldırır, eləcə də telefonda əlavə nömrənin istifadəsinə şərait yaradır. eSIM haqqında daha ətraflı məlumatı esim.nar.az səhifəsindən əldə edə bilərsiniz.

**"Nar" haqqında:**

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# "Dağıdıcı müxalifət hər cür iyrənc əməllərdən istifadə edir"

"Bu gün müxalifət partiyalarının normal inkişaf edə bilməməsi və cəmiyyətdəki ictimai-siyasi proseslərə təsir edə bilməməsinin səbəblərinin məhz həmin liderlər ilə əlaqələndirmək lazımdır. Düşünürəm ki, bu partiyalar da həmin liderlərin şəxsi maraqları üzərində qurulub. Demək olar ki, adı çəkilən partiyalar ancaq bir şəxsin iradəsindən asılıdır". Bunu Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, sözügedən partiyalar normal bir partiyaya çevrilə bilmirlər: "Bunun da əsas səbəbi, uzun illərdi ki, bu partiyaların başında oturan öz şəxsi maraqlarını güdən liderlərlə bağlıdır. Ümumiyyətlə, bu gün müxalifət gündəmdə qalmaqdan ötrü reallığı özündə əks etdirməyən məsələlər ilə məşğul olur. Dağıdıcı müxalifət ictimaiyyətin diqqətini özlərinə cəlb etmək üçün hər cür iyrənc əməllərdən istifadə edir. Müxalifət təmsilçilərinin bu cür yersiz hərəkətləri xalq tərəfindən pis qarşılanır".

T.Novruzov onu da bildirdi ki, bu gün dağıdıcı müxalif partiyaları ayrı-ayrı şəxslər ətrafında formalaşaraq fəaliyyət göstərirlər: "Sözügedən partiyaların iş fəaliyyəti həmin şəxslərin şəxsi maraqlarına yönəlir. Digər tərəfdən də Azərbaycanda fəaliyyət göstərən radikal müxalifət partiyalarının zəif olmasının əsas səbəbi sözügedən partiyalara rəhbərlik edən liderlərin səhv siyasət aparmaları ilə bağlıdır. Bir sözlə, adı çəkilən partiya sədrləri öz səhvlərini, öz içərilərində, partiyalarında və fəaliyyətlərində axtarmalıdırlar".

**Gülyana**

# Ermənistan sosial fəlakətə "qucaq açır"

***Uzun illərdir sosial-iqtisadi problemlərlə üz-üzə qalan Ermənistan 44 günlük Vətən müharibəsində Azərbaycanın qarşısında ağır məğlubiyyətə uğradıqdan sonra yeni tənəzzül dövrünə qədəm qoyub. Belə ki, məğlub ölkə ciddi ictimai-siyasi xaosla yanaşı, dərin sosial-iqtisadi böhran dövrünü də yaşayır. Erməni ekspertlərin də etiraf etdiklərindən aydın olur ki, bu gedişlə işğalçı ölkə daha böyük fəlakətlərlə üzləşməli olacaq.***











## Erməni ekspert: "Bizi daha böyük fəlakət gözləyir"

Beləliklə, yaşanan iqtisadi böhran şəraitində gündəlik istehlak mallarının, xüsusən də ərzaq məhsullarının qiymətində olan artım mövcud durumu daha da pisləşdirir ki, bu da cəmiyyətdə getdikcə daha böyük narazılıq yaradır.

Dövlət maliyyəsinin idarə edilməsi üzrə beynəlxalq müşavir Vardan Aramyan 2022-ci ilin qalan ayları üzrə proqnozları nəzərdən keçirərkən bildirib ki, Ermənistan qarşıdakı dövrdə həm sosial, həm də siyasi baxımdan ciddi problemlərlə üzləşəcək. 2020-ci ilin böhranından sonra gələn 2021-ci ilin hamı, hətta inkişaf etmiş ölkələr üçün çətin olduğunu kimsə inkar etmir. Lakin iqtisadi tənəzzül Ermənistanda həm Aİ, həm də region ölkələri arasında ən dərindir. 2022-ci ildə makroiqtisadi canlanma natamam olacaq. 2020-ci ildəki 7,4 faiz iqtisadi gerilemədən sonra Ermənistanda iqtisadi artım xeyli aşağı düşüb. Ən azı 7 faizə yaxınlaşa biləcəyi ilə bağlı proqnozlar fantaziyadan başqa bir şey deyil.

Ölkə iqtisadiyyatının xilasına ümid var, lakin bunun üçün hökumət populist addımlardan, artıq xərcləmələrdən əl çəkməli, kəmərini sıxmağı bacarmalı və ilk növbədə bunu özündən başlamalıdır: "Hökumət özünü necə doğrultsa da iqtisadi aktivliyin 5 faizlik göstəricisi olduğunu bəyan etsə də mən iki amili səsləndirəcəyəm. Unutmayın ki, siz artımdan qat-qat dərin tənəzzül keçirmisiniz, ikincisi, struktura baxın, iqtisadiyyatınız necə inkişaf edir? Biz əsasən ekzogen hadisələr hesabına ayaq üstə dururuq".



Hətta ölkənin turizm sektoru da ziyana işləyir. Əgər əvvəllər xaricə təklif edilən turist paketi şərti olaraq 1000 dollara başa gəlirdisə, indi 1200 dollar olacaq. Ona görə də turist Ermənistana gəlməzdən əvvəl daha çox düşünməyə başlayır. Hətta Ermənistanın rəqabət qabiliyyəti aşağı düşür. Tikinti sektoru da bu problemdən zərər çəkir. Tikinti sektorunda qiymətlər dollar-dram nisbətində sabitdirsə, indi nisbət dəyişdikcə qiymət artımına başlanacaq və ya itkilər yaranacaq.

Ermənistan rəqabət qabiliyyətli qiymət üstünlüyünü itirdiyindən İT sektoru da zərər çəkir. Məsələn, əgər əvvəllər "X" şirkəti xaricdən ayda 100 min dollar alıb 20 proqramçının maaşını ödəyirdisə, bundan sonra həmin məbləği alaraq 18 proqramçının maaşını ödəyəcək. Qalanını ya işdən çıxaracaq, ya da ortaqları üçün qiymətləri qaldıracaq və müştəri itirəcək.

Ermənistanda hökumətin qərarı ilə 2022-ci il yanvarın 1-dən minimum pensiya və müavinətlərin artırılması fonunda istehlak və ərzaq məhsullarının qiymətləri 20 faizdən çox artıb. İqtisadçı ekspert Suren Parsyan qeyd edir ki, 2019-cu ildən Ermənistanda kasıblıq səviyyəsi artır və bu tendensiya davam edir: "2022-ci ilin qalan dövründə qiymətlərin kəskin artması buna daha ciddi təsir göstərəcək. Erməni milli valyutası olan dramın devalvasiyası ölkədə həm qiymətlərin artımına, həm aclığa, həm də kasıbçılıq səviyyəsinin artmasına təkan verəcək. Erməni valyutasının bundan sonra da ucuzlaşması prosesi davam edəcək".

Ekspert onu da əlavə edib ki, işğal olunmuş əraziləri itirdiklərinə görə Ermənistan iqtisadiyyatında ciddi problemlər yaranıb. Odur ki, qarşıda Ermənistanı heç də yaxşı olmayan günlər gözləyir. Bu gedişlə 2022-ci ildə Ermənistanın daha dərin böhran yaşaması, ağır problemlər içində çabalaması, insanların narazılığının pik həddə çatması qaçılmazdır.

Bütün bunların fonunda əhali isə çıxış yolunu yalnız ölkəni birdəfəlik tərk etməkdə görür. Məsələn, açıqlanan rəqəmlərdə qeyd olunur ki, Ermənistanı 2021-ci ildə 73571 ölkə vətəndaşı tərk edib.

***Mənsumə Babayeva***



# Hamiləlik dövründə idman etmək mümkündürmü?



**Körpənin gözləmə müddəti bir qadının həyatında xüsusi və çox vacib bir dövrdür. Gələcək ana yalnız sağlamlığına deyil, körpəsinin rifahına da diqqət yetirir. Son illərdə daha çox gənc qızlar gündəlik həyatda və hamiləliyin planlaşdırılması mərhələsində idmanla məşğul olurlar. Bir qadın artıq hamilə olduqda nə etməlidir? Axı, "maraqlı mövqedə" olan qadınlar hamiləlikdən əvvəl öz sağlamlıqlarını və çəki artımını daha diqqətlə izləməlidirlər.**

## Hamiləlikdə idman etmək mümkündürmü?

Hər kəs bilir ki, idman insanın fiziki və emosional vəziyyətinə müsbət təsir göstərir. Hamiləlik dövründə idman etməyin faydaları varmı? Oturaq həyat tərzi çəki artımına və yüksək təzyiqə səbəb olur. Heç kimə sirr deyil ki, idman məşqləri tənəffüs və ürək-damar sistemlərinin işini normallaşdırır, doğuşda iştirak edən əzələləri gücləndirir, psixo-emosional vəziyyətə faydalı təsir göstərir, yuxunu normallaşdırır və iştahı yaxşılaşdırır. Müntəzəm məşq hamiləlik fəsadlarının faizini azaldır, doğuşun normal gedişinə kömək edir və perineal yırtıq riskini azaldır. Hamiləlik dövründə idman etmək qan dövranını yaxşılaşdır. Həm də daxili orqanlarda qan dövranını və maddələr mübadiləsini yaxşılaşdırır, bu da dölün böyüməsinə və inkişafına müsbət təsir göstərir. Hamiləlik dövründə idman edən qadınların uşaqlarının müxtəlif xəstəliklərə, infeksiyalara və streslərə daha az həssas olduğuna dair elmi sübutlar da var. Bundan əlavə, hamiləlik dövründə idmanla məşğul olan qadın doğuşdan sonrakı dövrdə daha tez sağalır və doğuşdan sonrakı ağırlaşmaların inkişaf riski əhəmiyyətli dərəcədə azalır.

İdmanın qəti şəkildə əks göstəriş olduğu şərtlər və xəstəliklər də vardır. Plasenta previa - plasentanın uterusda aşağı yerləşdiyi və ondan çıxışı blokladığı bir vəziyyət - belə hallar ağır qanaxmanın qəfil başlaması ilə təhlükəlidir və hər hansı fiziki fəaliyyət onu təhrik edə bilər.

Qaraciyər, böyrəklər, ürək-damar sistemi xəstəlikləri. Hamiləlik dövründə fitnes dərsləri şəklində əlavə fiziki fəaliyyət bu xəstəliklərin gedişatını ağırlaşdıra bilər. Uterusun hipertonikliyi, hamiləliyin dayandırılma təhlükəsi - idmanda vəziyyəti daha da ağırlaşdıra və aşağı düşməyə səbəb ola bilər.

Amniotik mayenin həddindən artıq yığılması. Bu vəziyyətdə idmanla məşğul olmaq vaxtından əvvəl doğuşa və ya dölün kisəsinin yırtılmasına və amniotik mayenin vaxtından əvvəl yırtılmasına səbəb ola bilər.

İltihablı və irinli proseslər, çünki idman iltihab prosesinin yayılmasına kömək edəcəkdir.

Ağır anemiya - hemoglobin səviyyəsinin əhəmiyyətli dərəcədə azalması adətən orqan və toxumalara oksigen çatışmazlığı ilə müşayiət olunur və məşq oksigen çatışmazlığı vəziyyətini daha da ağırlaşdıra bilər.

Qan sisteminin xəstəlikləri, xüsusən də tromboza meyi bulli (qan damarlarını bağlayan qan laxtalarının meydana gəlməsi) və ya qanaxma. Bu hallarda xəstəliyin gedişi hamiləlik zamanı fiziki güclənmə fonunda pisləşə bilər.

Bundan əlavə, yadda saxlamaq lazımdır ki, hamiləliyin fizioloji kursu olan sağlam bir qadın belə bütün idman növləri ilə məşğul ola bilməz. Bəzi hallarda qadağaya səbəb bəzi idman növlərində zədələrin yüksək olmasıdır. Bu qrupa at sürmə, boks, karate, hər növ güləş, xizəklə tullanma, paraşütlə tullanma, xizək sürmə, skeytbord, konkisürmə, snoubord daxildir. Qadağan edilmiş fəaliyyətlərə motosiklet, skuterlər, qar skuterləri və reaktiv xizəklər daxildir. Yüksək yaralanma riski ilə yanaşı, bu nəqliyyat vasitələrinin işləyən mühərriki çanaq orqanlarına mənfi təsir göstərən və hamiləliyin dayandırılmasına səbəb ola biləcək sıx vibrasiyaya səbəb olur. Velosiped, idman velosipedləri və su velosipedləri uterusa qan axını artırmaq xüsusiyyətinə malikdir, bunun nəticəsində tonus arta bilər, bu da hamiləliyin dayandırılması təhlükəsinə səbəb olur. Suya tullanmaq da qadağandır. Bu idman növü təzyiqin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqələndirilir, bu, körpəni gözləyən bir qadın üçün olduqca arzuolunmazdır, çünki bu, fetusa qan tədarükünün pozulmasına səbəb ola bilər.



Tabu həmçinin güc idmanlarına, müvafiq olaraq 5 kiloqramdan çox çəki qaldırmağa, bütün güc simulyatorlarına, addım, rəqs aerobikası, sprinting, uzun məsafəyə qaçış və qarın əzələlərinin uzanması ilə əlaqəli hər hansı məşqlərə tətbiq olunur.

Hamilə qadınlar üçün hansı fəaliyyətlərə icazə verilir.

Əvvəla, hamiləlik dövründə idmanla məşğul olmağa başladıqda, konsepsiyadan əvvəl fiziki hazırlıq səviyyəsini nəzərə almaq lazımdır. Bir qadın uzun illər müntəzəm olaraq idmanla məşğul olubsa, təbii olaraq və hamiləlik dövründə sıx məşq edibsə, əks göstərişlər olmadıqda, müəyyən bir nəzarət olsa da, daha intensiv məşq edə bilər. Beləliklə, xüsusən də məşq başa çatdıqdan 5 dəqiqə sonra nəbz dərəcəsi dəqiqədə 100 vuruşdan çox olmamalıdır və qan təzyiqi eyni müddətdən sonra öz-özünə normallaşmalıdır. Məşq zamanı intensiv fiziki işin vaxtını 15 dəqiqə ilə məhdudlaşdırmağa çalışmalısınız (intensiv iş altında ürək dərəcəsi dəqiqədə 150 vuruşdan çox olduğu başa düşülür). İstiləşmə və istiləşmə üçün ayrılan vaxtı artırmaq daha yaxşıdır. Təlim vaxtının özü ideal olaraq 1,5 saatdan çox olmamalıdır.

Hamiləlikdən əvvəl intensiv idmanla məşğul olmayan qadınlar hamiləlik dövründə dərslərin başlanğıcına diqqətlə yanaşmalı, kiçik və tədricən, məqbul hədlər daxilində, yükü artırmalıdırlar. Ginekoloq Elena Rəcəbova qeyd edir ki, insan sağlamlığının formalaşması üçün fiziki aktivlik çox vacibdir. Hamiləlik zamanı fiziki aktivlik həm ana, həm də doğulacaq körpənin sağlamlığına müsbət effekt göstərir.

Həmçinin doğuşdan sonrakı dövrdə ananın əvvəlki durumuna qayıtmasınl sürətləndirir.

Fiziki aktivlik, idmanla məşğul olma xroniki xəstəliklərin yaranma riskini azaldır, ürək damar sisteminin fəaliyyətini yaxşılaşdırır. Hamilə qadının hamiləlikdə çox çəki almasına imkan vermir, doğuşu daha rahat keçirir, ümumilikdə özlərini daha gümrah hiss edirlər. Fiziki aktivlik hamiləyə zövq və sevinc gətirməli, yorğunluq hiss xoş ve komfortlu olmalıdır. Məşq zamanı beyin dincəlməlidir.

Hamilələrdə fiziki aktivlik daimi olmalıdır, həftədə ən azı iki dəfə, 30-45 dəqiqə aralığında olmalıdır. Hamilələrə idmanla məşğul olmaq 45 dəqiqədən çox olmaz, çünki yüklənmə zamanı qanda hipoqlikemiya (şəkər miqdarının azalması) yarana bilər.

Fiziki yüklənmənin əsas indiqatoru "danışıq testi"dir. Hamilə qadın fiziki aktivlik zamanı sakit danışa bilirsə, tənginəfəslik yoxdursa bu adekvat sayılır.

Hamilələr üçün əsas idman növləri bunlardır.

**1.** Gəzintidən başlayın (45-60dəqiqə)

**2.** Çanaq dibi və aralıq nahiyəsinin əzələlərinin elastikliyi üçün yoqa hərəkətləri.

**3.** Aquaaerobika - su prosedurları toxumaları möhkəmlədir, hamiləlikdə dəri çatlarının yaranmasının profilaktikasında müsbət rol oynayır.

**4.** Üzgüçülük - su bədəni soyudur və yüngülləşdirir.

**5.** Yoqa - onurğanı və oynaqları möhkəmlədir

**6.** Hamilələr üçün rəqs - bu bədənə balanslaşmış yük verərək hamilənin əhval-ruhiyyəsini qaldırır. doğuşa hazırlığı yüngülləşdirir.

Bir hamilə qadın idman edərkən hansı hallarla qarşılaşarsa həkimə müraciət etməlidir? Əgər cinsi orqanlardan qanlı, sulu ifrazat gələrsə, baş ağrısı, tənginəfəslik olarsa,qarınaltı və bel, döş qəfəsi nahiyəsində ağrılar olarsa, şişginlik olarsa mütləq həkimə müraciət etməlidir.

## Hansı hamilələrə idmanla məşğul olmaq olmaz?

Əgər hamilədə vaxtından qabaq doğuş təhlükəsi riski varsa, cift gəlişi, ağır qan azlığı, ürəkdamar və ağciyər patalogiyası varsa, uşaqlıq boynu yetməzliyi varsa bu qadınlara idmanla məşğul olmaq olmaz.

Məşqçi və idman ustası Zelfira Ələkbərli isə qeyd edir. İlk növbədə idman edən zaman əhval-ruhiyyəmiz yaxşı olmalıdır. Bədənimiz gümrah olur, stresdən uzaq oluruq. Hətta əgər hamiləliyə qədər idman etməmisinizsə hamiləlik zamanı buna imkan tapın. Hamiləlik dönəmində məşq etmək bədənimizdə doğuş prosesində olan ağrıları azaldır. Bel ağrılarını, qəbizliyi, ayaqda şişkinliyi azaldır. Hamiləlik zamanı 3 qrup əzələ məşq olunmalıdır. Bel, çanaq və qarın. Hamiləlik dönəmində xüsusi proqram hazırlanmalı və hamiləliyə uyğun olaraq qrup əzələlər məşq olunmalıdır.

Məşq həm də fərdə görə dəyişir. Yuxudan oyandıqdan 2-3 saat sonra məşqə başlamaq məsləhətlidir. Ağır çəkilərdən qorunmaq ani hərəkətlərdən qaçmaq düzgün nəfəs almaq və 25-35 dəq məşq edə bilərsiniz.

***Havar Şəfiyeva***

# Anna Qruzina:

## "Harada doğulmusansa, orada yaşayıb yaratmalısan"

Rus əsilli azərbaycanlı: "Ailəmizdə həm rus, həm də Azərbaycan dillərində danışırlar"

Azərbaycanın Gəncə şəhər sakini Anna Qruzina ölkənin ən qədim universitetlərindən birində-Azərbaycan Dövlət Aqrar Universitetində ingilis dilindən dərs deyir. O, işini çox sevdiyini və tələbələri ilə fəxr etdiyini deyir. Anna əmindir ki, onlar Azərbaycanın kənd təsərrüfatını inkişaf etdirəcək gələcək yüksək səviyyəli mütəxəssislərdir. "Moskva-Baku" portalı Gəncədəki həyat və yaradıcılığından danışan Anna Qruzinadan müsahibə götürüb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Azərbaycan dilini mükəmməl bilirsiniz. Maraqlıdır, rus müəllimi Anna Valeriyevna onlara ən təmiz Azərbaycan dilində müraciət edəndə tələbələr necə reaksiya verirlər?***

- Birinci kurs tələbələri əvvəlcə təəccüblənir, komplimentlər deyirlər: "Müəllim, siz azərbaycanca elə gözəl danışırsınız, belə xoş "Gəncə" ləhcəsi ilə". Mən bu sürprizi anlamıram. Mən Azərbaycan vətəndaşıyam, burada doğulub boya-başa çatmışam, deməli, dövlət dilini bilməliyəm. Mən uşaqlıqdan Azərbaycan dilində danışıram. Üç yaşımda anam məni bağçaya göndərdi. Mən ünsiyyətcil uşaq idim və azərbaycanca danışırdım. Bundan əlavə, qonşu dostlarımın demək olar ki, hamısı azərbaycanlı idi. Bayramları birlikdə qeyd edirdik, qonaq gedirdik, musiqi dinləyirdik, sevimli kitablarımızı bir-birimizə ötürürdük.

Məhz o vaxt ingilis dili ilə maraqlanmağa başladım. Mən tərcüməçi olmaq arzusunda idim. Orta məktəbi bitirdikdən sonra Azərbaycanın rus icması Rusiya hökumətinin kvotasına uyğun olaraq məni Volqoqrad Dövlət Universitetinə oxumağa göndərdi. Tərcümə və tərcüməçilik fakültəsinə daxil oldum.

Yadımdadır, anam məni tək buraxmaq istəmədi, uzunmüddətli məzuniyyətə çıxdı və 6 ay mənimlə Volqoqradda yaşadı. O, Gəncəyə qayıdanda isə mən müstəqil tələbə həyatına alışmalı oldum. Həqiqətən də Azərbaycanda valideynlər hətta yetkin uşaqları himayə etməyi xoşlayırlar.





Təbii ki, ilk vaxtlar mənim üçün yad şəhərdə tək qalmaq çətin idi. Oradakı insanlar arasında münasibətlər Azərbaycandakından bir qədər fərqlidir. Burada qonşularımız bir-biri ilə dostdurlar və hər an sizə dəstək olmağa hazırdırlar, tanış olmayan, yoldan keçənlər belə mütləq köməyə gələcəklər. Azərbaycanda qonaq qəbul etməyi, süfrə açmağı xoşlayırlar.

Volqoqradda isə qonşular çox vaxt eyni mərtəbədə kimin yaşadığını belə bilmirlər. Orada insanlar daha qapalıdır. Gəncə qadını olan mənim üçün bütün bunlar təəccüblü və qeyri-adi idi.

***- Tarixi vətəndə qalmaq düşüncələri yaranmadı?***

- Mən Gəncəyə bağlıyam və həyatımı doğma şəhərimsiz təsəvvür edə bilmirəm. Gəncə kiçik şəhərdir və demək olar ki, hamı bir-birini tanıyır. Küçədə gəzirsən və hamı ilə salamlaşırsan. Budur, tələssiz, sakit və ölçülü bir həyat. Anam da atalar sözünə sadiqdir: "Harada doğulmusansa, orada yaşayıb yaratmalısan".

***- Bizə əcdadlarınızdan danışın. Necə oldular ki, Azərbaycana gəliblər?***

- Ana tərəfdən nənəm 50-ci illərin ortalarında Penza vilayətindən Gəncəyə köçüb. Yerli fabrikdə toxucu kimi işə düzəlib. Anam Tatyana Orlinskaya Gəncədə anadan olub. Uzun müddət şəhər icra hakimiyyətində işləyib. İndi "Gəncə xəbərləri" qəzetində korrektordur.

Atam Valeri Qruzin Marneulidə doğulub boya-başa çatıb. Onun əcdadları Rostov vilayətində yerləşən Koluşkino kəndindəndir. Müharibə zamanı nənənin ailəsi Gürcüstana təxliyə edilib və orada əbədi qalmağa qərar veriblər.

Atam orta məktəbi bitirdikdən sonra Bakı Dövlət İnstitutunun hüquq fakültəsinə daxil olub və ondan sonra Gəncə prokurorluğuna işə göndərilib. Gəncədə anamla tanış olub, ailə qurub, 3 uşaq böyüdüb. Bir müddət atam Kamçatkada işləyib. Bu gün Vladivostok Dövlət Universitetinin hüquq fakültəsini bitirərək atasının yolu ilə gedən ortancıl qardaşım Semyon orada yaşayır.

Böyük qardaşım Oleq Sankt-Peterburqda məskunlaşıb, mühəndis işləyir. Koronavirus pandemiyasından əvvəl biz tez-tez bir-birimizi ziyarətə gedirdik və indi sosial şəbəkələrdə aktiv şəkildə ünsiyyət qururuq.

***- Azərbaycanlı ilə ailə qurmusunuz, iki qız böyüdürsünüz. Hər bazar günü kilsəyə gedirsiniz. Həyat yoldaşınız məbədə getməyə mane olurmu?***

- Məni kilsəyə özü gətirir. Deyir ki, bir-birinin dininə hörmət edilməlidir. Əsas odur ki, Uca Allaha iman gətirək və yaxşı, hörmətli insan olmağa çalışaq. Bütün dinlərin əsası eynidir- insanlara yaxşılıq etmək. Uşaqlıqdan kilsəyə gedirəm. Mən kiçik olanda anamın məni kilsəyə necə apardığını xatırlayıram. Mən ikonalara maraqla baxdım və ondan sonra duaları təkrarlamağa çalışdım. Yaşlananda kilsəyə tək getməyə başladım.



Bilirsən, Allahdan istədiyim hər şeyi mənə verdi. Etibarlı, qayğıkeş ər, gözəl və sağlam qızlar, sevimli iş. Bu həyatda hər şeyə görə Allaha minnətdaram!

Həyat yoldaşıma gəlincə, Turalla işdə tanış olduq. Mən universitetə təzə gəlmişdim, o isə kafedraların birində işləyirdi. Dərhal bir-birimizi bəyəndik. Ünsiyyət qurmağa başladıq. Və bir müddət sonra o, mənə evlilik təklifi etdi. Azərbaycan adəti üzrə evimizə elçilər göndərildi. Səs-küylü toy etdik, ondan sonra mən ərimin evinə köçdüm.



Turalın çox yaxşı, anlayışlı valideynləri var. Dərhal məni ailəyə qəbul etdilər. Qayınatam Omsk Ali Polis Məktəbini bitirib və uzun müddət Gəncə polisində işləyib. Omskdakı tələbə həyatından çox danışıb. Onunla danışacağımız çox şey var idi.

Qaynanam Gəncə məktəblərinin birində riyaziyyatdan dərs deyir. İki qız böyüdürük. Böyük Saranın 9, kiçik Məryəmin 4 yaşı var. Ailəmiz həm rus, həm də azərbaycan dillərində danışır.

Biz adi beynəlmiləl ailəyik. Novruz bayramını və Pasxa bayramını qeyd edirik, şəkərbura və blinçik bişiririk. Biz Azərbaycanın bölgələrini gəzməyi və uşaqlara doğma ölkəmizin tarixi və mədəniyyəti haqqında danışmağı sevirik.

Azərbaycanda bizim kimi ailələr çoxdur. Biz sülh və harmoniya içində yaşayırıq...

***Müsahibə - Samira Kazımova***
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# "Barselona"

## Messinin yaxınları ilə danışıqlar aparır



PSJ-nin futbolçusu Lionel Messi gələn yay sabiq klubu "Barselona"ya qayıda bilər. Qol.az xəbər verir ki, bu barədə İspaniya mətbuatı məlumat yayıb. Kataloniya təmsilçisi 35 yaşlı hücumçunun 2023-cü ildə kluba gəlməsi üçün onun ətrafı, yaxınları ilə danışıqlar aparır. Qeyd olunur ki, bu gün bunun reallaşması üçün çoxlu imkanlar mövcuddur.

## Bağçalara uşaq qəbulu necə aparılır:
# Tanışlıq, yoxsa korrupsiya?

"Bağçalara uşaqların qəbul prosesi başlanılıb və artıq bəzi valideynlər qeydiyyatı da aparıb". Bunu SİA-ya açıqlamasında Təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib.

Elçin Əfəndi bildirib ki, bağçalarda əvvəl qəbul şərtləri kortəbii şəkildə aparılırdı: "Bağça müdirləri tərəfindən korrupsiya və ya tanışlıq amilləri nəzərə alınaraq uşaqları bağçaya qəbul edirdilər. Hazırda Təhsil Nazirliyi tərəfindən şəffaf bir sistem yaradılıb. Məktəbəqədər təhsil sistemi üzrə yeni sistem var. Valideynlər elektron qaydada qeydiyyatdan keçərək sorğu göndərə bilirlər. Təbii ki, boş yer olduqda onların sorğusu qəbul edilir. Sorğu qəbul edildikdən sonra lazımi sənədlər bağçaya təhvil verilir".



Təhsil üzrə mütəxəssis Elçin Əfəndi sözlərinə əlavə edərək bildirib ki, bağçalarla bağlı problemlər hazırda vakant yerlərin seçimi ilə bağlıdır: "Çox az yerlər çıxarılıb. Demək olar ki, əvvəlcədən tutulub. Nazirlik daha çox vakant yer çıxara bilmir".

*Qönçə Quliyeva*

## Avtomobil piyadanı vuraraq öldürüb



Tovuz rayonunda piyadanın ölümü ilə nəticələnən yol qəzası baş verib. APA xəbər verir ki, hadisə Bakı-Qazax magistral yolunun rayon ərazisindən keçən hissəsində qeydə alınıb. Hərəkətdə olan avtomobil orta yaşlı kişini vurub.

Piyada hadisə yerində dünyasını dəyişib. Ölən şəxsin kimliyi dəqiqləşdirilir. Faktla bağlı araşdırma aparılır.

# Neft bahalaşıb

**Xammal çatışmazlığı ilə bağlı narahatlıqlar fonunda dünya bazarlarında neftin qiyməti cüzi artıb. SİA birjalara istinadən xəbər verir ki, Şimal dənizində hasil olunan "Brent" neftinin oktyabr fyuçersləri 0,28% bahalaşaraq, 1 bareli 95,19 ABŞ dollarına satılıb. WTI neftinin sentyabr fyuçerslərinin qiyməti 0,25% artıb və 1 bareli 89,23 ABŞ dolları təşkil edib.**

İnvestorların narahatlıqlarını dəstəkləyən məqam Çində statistikanın açıqlanmasıdır. Belə ki, iyul ayında Çinə neft idxalı xeyli artıb bu isə tələbin bərpasından xəbər verir.



# Alma ürəyin işemik xəstəliyinə qarşı müdafiəni gücləndirir

**Alma qəbulu xolesterin səviyyəsini və bununla da ürək-damar xəstəliklərini, o cümlədən ürəyin işemik xəstəliyi riskini azaltmağa kömək edir.**



Ürəyin işemik xəstəliyi çox vaxt orqanları qanla təmin edən damarların divarlarında yığılan yağlı çöküntülərdən qaynaqlanır. Yüksək xolesterin olan insanlarda da ürək xəstəliyinə tutulma ehtimalı yüksəkdir. Xolesterini azaltmaq üçün kifayət qədər lif istehlak etmək vacibdir. AZƏRTAC "Express"ə istinadla xəbər verir ki, alma ən yaxşı lif mənbələrindən biridir. Gündə üç almanın qəbulu xolesterinin azalması zərurətindən söhbət getdikdə faydalı ola bilər.

Ümumiyyətlə, daha çox meyvə, tərəvəz, kəpəkli taxıl bitkiləri və paxlalılar istehlak edərək lif qəbulunu artırmaq olar. Bundan başqa, yüksək xolesterin probleminin qarşısını almaq və aradan qaldırmaq üçün ümumi sağlam həyat tərzinə riayət etmək vacibdir - bu pozuntu adətən doymuş yağlı qidaların qəbulu, eləcə də qeyri-kafi fiziki fəallıq, artıq çəki və həddindən artıq alkoqol istehlakı ilə əlaqələndirilir.

## Başsağlığı

Suraxanı rayon Su-Kanal İdarəsinin sədri Səfər Babayev, əməkdaşları Tural Rəsulov, Mehman Həşimov, Emil Məmmədov, Yavər Nuriyev həmin idarənin abonent şöbəsinin müdiri Əhməd Əhmədliyə qardaşı

**Tural Əhmədlinin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

***

Məmmədhəsən Məmmədov Suraxanı rayon Su-Kanal İdarəsinin abonent şöbəsinin müdiri Əhməd Əhmədliyə qardaşı

**Tural Əhmədlinin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**